AZƏRBAYCAN
XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

24 fevral 2017-ci il №13-16 (9107) Qiyməti 50 qəpik

## BU SAYIMIZDA


### DƏNİZ NƏQLİYYATI İLƏ YÜKDAŞIMALAR ARTIB



*Cari ilin yanvar ayında havaların əlverişsiz keçməsinə baxmayaraq, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin gəmiləri ilə daşınan yüklərin həcmi artıb.*

Səh. 2

### XOCALI SOYQIRIMINDAN 25 İL KEÇİR




*Deyirlər zaman ən böyük təbibdir. Ən ağır yaraları da sağaltmağa qadir təbib. Belədirsə, Xocalı yaramızı sağaltmaq, Xocalı ağrı-acımızı heç olmasa bir qədər yüngülləşdirmək üçün Zaman adlı təbibin nə qədər vaxta - neçə qərinəyə, neçə əsrə ehtiyacı var?*

Səh. 3

### "ŞAMAXI" GƏMİSİNİN TƏYİNATI DƏYİŞDİRİLİR



**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-yə məxsus "Şamaxı" tankerinin təyinatı dəyişdirilir. 1988-ci ildən sular qoynunda fasiləsiz neft və neft məhsulları daşıyan gəmi əsaslı təmir və yenidənqurmadan sonra təmizləyici stansiya kimi fəaliyyət göstərəcək.**

Səh. 4

### DƏNİZÇİLƏRİN HAZIRLIĞININ YAXŞILAŞDIRILMASI MÜZAKİRƏ OLUNUB



*Londonda Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının iştirakı ilə dəniz qəzalarının araşdırılmasından əldə edilən biliklərin dənizçilərin hazırlığının yaxşılaşdırılmasına tətbiqi yolları müzakirə olunub.*

Səh. 5

### "SUDA BATIRILAN MİLYARDLAR"



*Sənaye miqyasında balıq ovuna çəkilən xərclərin daim artması müqabilində alınan mənfəət get-gedə azalır. Lakin əgər Dünya okeanına bir qədər "dinclik" verilsə və sənaye miqyasında balıq ovunun həcmi azaldılsa, balıqçılıq sahəsi ildə 83 milyard dollara qədər əlavə mənfəət əldə edə bilər.*

Səh. 6

### RUSİYA, GÜRCÜSTAN VƏ ABŞ İDMANÇILARI İLƏ BİR YARIMQRUPDA MÜBARİZƏ APARIBLAR




*İran İslam Respublikasının Kirmanşah şəhərində böyüklər arasında sərbəst güləş üzrə dünya kuboku yarışları keçirilib.*

Səh. 8


# AZƏRBAYCAN RESPUBLİKASINA TURİST AXINININ SÜRƏTLƏNDİRİLMƏSİ İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI



Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasına turist axınının sürətləndirilməsi məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti:

1.1. Azərbaycan Respublikasının Rusiya Federasiyası, Türkiyə Respublikası, İran İslam Respublikası və Gürcüstan ilə dövlət sərhədinin buraxılış məntəqələrindən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sürətli keçidini təmin etmək məqsədi ilə xüsusi ayrılmış hərəkət zolaqlarının müəyyən edilməsi üçün müvafiq infrastrukturun yaradılmasını üç ay müddətində təmin edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə birgə məlumat versinlər;

1.2. xüsusi ayrılmış hərəkət zolaqlarının nişanlanmasını və hər kəsin yaxşı görə biləcəyi məlumatlandırma lövhələrində hərəkət istiqamətlərinin əks etdirilməsini təmin etsinlər;

1.3. dövlət sərhədinin buraxılış məntəqələrindən keçidin sürətləndirilməsi və yarana biləcək sıxlığın qarşısının alınması məqsədi ilə qarşılıqlı fəaliyyət göstərərək əlaqələndirmə işlərini daha da təkmilləşdirsinlər.

2. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi elektron vizaların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən bilavasitə Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrində əldə edilməsinə şərait yaratmaq məqsədi ilə, bütün buraxılış məntəqələrində "ASAN ödəniş" terminalları vasitəsilə "ASAN Viza" sisteminə daxil olaraq elektron viza üçün müraciət etmək imkanının yaradılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

3.1. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə birlikdə Azərbaycan Respublikasının İran İslam Respublikası ilə dövlət sərhədinin buraxılış məntəqələrinin iş saatlarının artırılması ilə bağlı qarşı tərəflə danışıqlar apararaq tədbirlər görsün və nəticəsi barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti və "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti ilə birlikdə Xəzər dənizində gəmi turlarının təşkili məqsədi ilə Xəzər dənizinin sahilyanı dövlətləri ilə danışıqlar aparsın və nəticəsi barədə dörd ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. vizaların "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin "Viza" altsistemindən kənar doldurulması hallarının qarşısını almaq məqsədi ilə Azərbaycan Respublikasının xarici ölkələrdəki bütün səfirlikləri və konsulluqlarında quraşdırılmış "Viza" altsisteminə aid avadanlığın tam işlək vəziyyətə gətirilməsini və vizaların yalnız həmin altsistem vasitəsilə rəsmiləşdirilməsini üç ay müddətində təmin edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN ödəniş" terminalları vasitəsilə elektron viza üçün bilavasitə Azərbaycan Respublikasının dövlət sərhədinin buraxılış məntəqələrində müraciət etmək imkanı olduğu barədə məlumatın Nazirliyin, habelə Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti ilə birlikdə dövlət sərhədinin buraxılış məntəqələrinə yaxın ərazilərdə və Bakı şəhərindən Azərbaycan Respublikasının digər şəhər və rayonlarına gedən yol qovşaqlarında həmin buraxılış məntəqələrindən şəxslərin keçidinin sıxlıq dərəcəsini əks etdirən interaktiv məlumat lövhələrinin quraşdırılmasını təmin etsin.

5. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti dövlət sərhədinin buraxılış məntəqələrində çalışan əməkdaşlarının mütəmadi olaraq müştəri (turist) məmnuniyyətinin və xarici dil biliklərinin artırılması üzrə təlimlərdə iştirakını təmin etsinlər.

6. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti ilə birlikdə turizm sahəsində xidmət göstərən subyektləri viza prosedurlarının sadələşdirilməsi barədə məlumatlandırsın və onların gömrük və miqrasiya qanunvericiliyi ilə tanış olmasını təmin etsin.

7. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi bu Sərəncamın 2-ci hissəsini nəzərə almaqla, dövlət sərhədinin buraxılış məntəqələrində elektron vizaların operativ verilməsinin təmin edilməsi üçün qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti və Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti ilə razılaşdırılmış təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikası Prezidentinə təqdim etsin.

8. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

8.1. Azərbaycan Respublikasının ərazisindən ixracı qadağan edilmiş, Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil olan mədəni sərvətlər istisna olmaqla, digər mədəni sərvətlərin ixracı ilə bağlı mühafizə şəhadətnaməsinin verilməsi prosedurunun sadələşdirilməsi və müddətlərin optimallaşdırılması üçün müvafiq normativ hüquqi aktlarında üç ay müddətində dəyişiklik edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

8.2. "Vizaların verilməsi işinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 noyabr tarixli 882 nömrəli Sərəncamı ilə verilmiş tapşırıqların tam şəkildə icrasını təmin etsin;

8.3. bu Sərəncamın 1.1-ci bəndində, 2-ci və 4-cü hissələrində və 8.2-ci bəndində nəzərdə tutulmuş tədbirlərin maliyyələşməsini təmin etsin;

8.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 fevral 2017-ci il.*

# PREZİDENTİN SƏRƏNCAMI İLƏ NƏQLİYYAT, RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRLİYİ YARADILIB

***Fevralın 13-də Prezident İlham Əliyev Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin yaradılması haqqında Sərəncam imzalayıb. Dövlətimizin başçısının digər sərəncamı ilə Ramin Quluzadə nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri təyin edilib.***

Sərəncam Azərbaycanda dövlət idarəetmə strukturunu təkmilləşdirmək, habelə nəqliyyat, rabitə və yüksək texnologiyalar sahələrində dövlət siyasətini və tənzimlənməsini müasir dövrün tələblərinə uyğunlaşdırmaq və səmərəliliyi artırmaq məqsədilə imzalanıb.

Sərəncama əsasən Nazirlər Kabineti Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamənin layihəsini, habelə Nazirliyin strukturu və işçilərinin ümumi say həddi barədə təkliflərini iki ay müddətində hazırlayıb Prezidentə təqdim edəcək. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin yaradılması ilə əlaqədar Prezidentinin aktlarının uyğunlaşdırılması ilə bağlı təkliflər iki ay müddətində hazırlanıb dövlət başçısına təqdim olunacaq. Həmçinin Nazirlər Kabinetinin normativ hüquqi aktlarının uyğunlaşdırılması üç ay müddətində təmin edilib Prezidentinə məlumat veriləcək.

Bundan başqa, Nazirlər Kabineti mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının uyğunlaşdırılmasını nəzarətdə saxlamalı və bunun icrası barədə beş ay müddətində Prezidentə məlumat verməlidir.

Sərəncama əsasən Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin yaradılması ilə əlaqədar uyğunlaşdırılmasını təmin edib Nazirlər Kabinetinə məlumat verəcək.

# PREZİDENT İLHAM ƏLİYEV: TRANZİT TƏBİİ SƏRVƏTLƏRLƏ MÜQAYİSƏDƏ QAT-QAT QİYMƏTLİDİR



***Xəbər verildiyi kimi, fevralın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Avrasiyada əməkdaşlıq və problemlər məsələlərinə həsr olunan panel-müzakirədə iştirak edib.***

Tədbirdə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da iştirak ediblər.

Panel-müzakirənin aparıcısı, Avrasiya Qrupunun sədri və təsisçisi Yan BREMMER Avrasiya regionunun əhəmiyyəti və bu regionda gedən proseslər barədə məlumat verdikdən sonra tədbirin qonaqlarını təqdim edərək dedi:

- Mən böyük məmnuniyyətlə çox mötəbər şəxslərdən ibarət bir qrupu sizə təqdim etmək istəyirəm. Burada toplaşmağımızın əsas məqsədi məlumdur. Münxen Təhlükəsizlik Konfransı çərçivəsində xüsusilə çoxsaylı qeyri-müəyyənlik və suallar mövcuddur.

Avrasiya bizim daha sabit regionlarımızdan biridir. Ancaq bu, heç də hər zaman belə olmamışdır. Panel iştirakçılarını təqdim etməzdən əvvəl bir neçə məqamı diqqətinizə çatdırmaq istəyirəm.

Məni heyrətləndirən odur ki, bu gün Avrasiyaya nəzərə saldıqda, biz gələcəkdə dünyanın digər regionlarında vəziyyətin necə olacağını sanki görmüş oluruq. Birincisi, ümumilikdə dövlətlər daxili işləri ilə məşğul olurlar. Digərlərinin daxili işlərinə ideoloji müdaxilə aşağı səviyyədədir. Məsələn, Qazaxıstan Rusiyaya islahatların necə aparılmalı olduğunu bildirmir. Azərbaycan Gürcüstanın daxili işləri ilə bağlı hər hansı münasibət bildirmir. Eyni zamanda, biz Rusiya və Çinin mehriban qonşuluq şəraitində yaşadığını, bəzən isə Şanxay Əməkdaşlıq Təşkilatının timsalında Qərb dünya nizamına alternativin təqdim edilməsində bir-birini dəstəklədiyinin şahidi oluruq. Nəhayət, qloballaşmaya gəldikdə çox maraqlı bir məqam ortaya çıxır. Təchizat zəncirinin artıq qlobal deyil, daha çox dövlətlərarası ticarət qovşaqları modeli üzərində qurulduğunun şahidi oluruq. Xüsusilə də "Bir kəmər-Bir yol" modelini qeyd etmək istərdim.

Əsas sual Avrasiyanın gələcək dünyanın mənzərəsini nə dərəcədə müəyyən edəcəyi ilə bağlıdır. Təbii ki, risklər var. Şübhəsiz, dövlətlərin digərlərinin işlərinə ideoloji müdaxilə etməməsi o demək deyil ki, maraqlar toqquşmur. Bu, Rusiya-Ukrayna məsələsində, Özbəkistanın bəzi qonşuları ilə münasibətlərində aydın görünür. Eyni zamanda, bizi düşündürən məsələlərdən biri Rusiya-Çin münasibətlərinin davamlı olub-olmasıdır.

Nəhayət, siyasi baxımdan davamlılıq sualı var. Artan populizm, neftin qiymətinin aşağı olması, İŞİD, terrorçuluq, radikalizm və sair. Avrasiyada da siyasi davamlılıq sualları meydana gələcəkmi? Təhlükəsizlik, ticarət və siyasi mandat baxımından gələcək dünya nizamı ilə bağlı suallar Avrasiyada yaranır.

Məmnunam ki, bu kontekstdə bizim bu gün Münxen Təhlükəsizlik Konfransı çərçivəsində olduqca bənzərsiz panelimiz var. Panelimizin iştirakçılarını təqdim etmək istəyirəm: Azərbaycan Prezidenti İlham Əliyev, Estoniya Prezidenti xanım Kersti Kalyulayd, Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili, Qazaxıstan Senatının sədri Kasım-Jomart Tokayev və Ukraynanın keçmiş Baş naziri və hazırda Narodniy Front Partiyasının sədri Arseni Yatsenyuk.





Avrasiyada fikir ayrılıqları ilə bağlı bəzi ilkin təşəbbüslər və bu qlobal kontekstdə regionun hansı istiqamətdə irəliləməsi perspektivləri ilə bağlı fikirləri söyləmək üçün, icazə verin, birinci olaraq sözü Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə verim.

Azərbaycan Prezidenti İlham ƏLİYEV çıxış edərək dedi:

- Azərbaycan Asiya ilə Avropa arasında yerləşir və bizim coğrafi mövqeyimiz, əslində, regionumuzda geosiyasi vəziyyəti müəyyən edir. Azərbaycan əsrlər boyu sivilizasiyaların qovuşduğu bir məkan, ölkə olmuşdur və bu gün biz tarixi irsimizi qoruyub saxlayırıq. Biz dünyanın multikulturalizm mərkəzlərindən birinə çevrilməyimizlə qürur duyuruq. Coğrafi mövqeyimiz, eyni zamanda, qonşularımızla yaxşı münasibətlərimiz bizə regionumuzda yaşayan insanların mənafeyinə xidmət edən təşəbbüslər irəli sürülən bölgədə çox etibarlı tərəfdaş olmaq imkanını verdi.

Azərbaycan beynəlxalq arenada etibarlı tərəfdaşdır. Biz gənc ölkəyik. Ötən il müstəqilliyimizin bərpasının 25-ci ildönümünü qeyd etmişik. Bu qısa müddət ərzində hesab edirəm ki, bu gün Azərbaycan dünyada hörmət edilən ölkədir. Bunun ən yaxşı nümunəsi bir neçə il bundan əvvəl Birləşmiş Millətlər Təşkilatında nümayiş olunmuşdur. O zaman Azərbaycan 155 ölkənin dəstəyi ilə BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Beləliklə, bu, beynəlxalq ictimaiyyətin mütləq əksəriyyətinin bizim fəaliyyətimizə verdiyi həqiqi qiymət, bizə göstərilən etimad və hörmət əlaməti idi.

Biz islahatlar aparmaqla iqtisadiyyatımızı planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçirdik. Bu gün iqtisadiyyatın özəl sektorunun ümumi daxili məhsulda payı 80 faizdən artıqdır. Azərbaycan qonşularla regional əməkdaşlığın yeni formatını tətbiq etdi. Eyni zamanda, 20 ildən də artıq müddətdən əvvəl təşəbbüskar qismində çıxış etdiyimiz enerji və nəqliyyat layihələri bu gün nəinki təkcə bizim üçün, həmçinin region üçün də yaxşı nəticələr verir. Bu gün enerji təhlükəsizliyi məsələlərinə milli təhlükəsizlik məsələsindən ayrı baxıla bilməz. Siyasətimiz birinci növbədə qonşularımızla, eyni zamanda, müsəlman dünyası, - biz müsəlman dünyasının bir hissəsiyik, - və Avropa ilə əməkdaşlığın gücləndirilməsi məqsədini daşıyır. Biz bu yaxınlarda Avropa İttifaqı ilə bir çox əməkdaşlıq sahələrini əhatə edəcək yeni razılaşma üzərində danışıqlara başlamışıq.

Biz çox nadir ölkələrdən biriyik ki, eyni zamanda, həm İslam Əməkdaşlıq Təşkilatının, həm də Avropa Şurasının üzvüyük. 2015-ci ildə biz ilk Avropa Oyunlarını təşkil etdik. Bu il biz IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edəcəyik. Beləliklə, bu, bizim niyyətlərimizi göstərir və biz sivilizasiyalar, mədəniyyətlər arasında dialoqa çoxlu töhfə veririk.

Üzləşdiyimiz problemlərdən ən böyüyü Ermənistan tərəfindən Azərbaycan ərazisinin davamlı işğalıdır. Bu da Ermənistan tərəfindən etnik təmizləmə və ərazimizin 20 faizinin işğalı ilə nəticələnmişdir. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının ərazimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir. Bu qətnamələr iyirmi ildən artıqdır ki, kağız üzərində qalmaqdadır. Bütün münaqişələrin həlli eyni prinsipə, eyni yanaşmaya əsaslanmalıdır. Hər bir ölkənin ərazi bütövlüyünə hörmət edilməlidir, onu pozmaq olmaz. Beynəlxalq səviyyədə tanınan sərhədlər güc yolu ilə dəyişdirilə bilməz. Ermənistan və Azərbaycan arasında münaqişə həmçinin region üçün ən böyük təhlükədir. Bizim konstruktiv siyasətimiz münaqişənin BMT Təhlükəsizlik Şurasının və digər vacib təşkilatların qəbul etdiyi qətnamələr əsasında sülh yolu ilə ən tez nizamlanması məqsədini daşıyır.

İndi isə sözümü bitirirəm, çünki mənə ilkin təqdimat üçün 5 dəqiqə vaxtın ayrılacağı söylənilmişdir və sonra suallarınızı məmnuniyyətlə cavablandıracam. Sağ olun.

X X X

Moderatorun sualına cavabında son illərdə ölkəmizdə bütün sahələri əhatə edən islahatların həyata keçirildiyini, Azərbaycanın təşəbbüsü ilə iri enerji və nəqliyyat layihələrinin icra olunduğunu diqqətə çatdıran Prezident İlham Əliyev hazırda ölkəmizin qədim "İpək Yolu"nun bərpasında yaxından iştirak etdiyini, Bakı-Tbilisi-Qars dəmir yolunun çəkildiyini, bu yolun fəaliyyətə başladığı təqdirdə Azərbaycan ərazisindən daşınmaların artacağını və təbii ki, bunun da milli iqtisadiyyatımıza müsbət təsir göstərəcəyini vurğulayaraq dedi:

- Əlbəttə ki, tranzit təbii sərvətlərlə müqayisədə qat-qat qiymətlidir. Çünki təbii sərvətlər gec və ya tez tükənəcəkdir. Tranzit üçün etibarlı və müasir infrastrukturunuz varsa, siz ərazinizdən və yatırdığınız sərmayələrdən faydalanaraq pul qazanacaqsınız. Buna görə nəqliyyat infrastrukturunun birləşdirilməsi bizim üçün ən vacib çağırışlardan biridir. Yeri gəlmişkən, biz indi Xəzər dənizinin sahilində ən böyük dəniz limanının inşasını aparırıq. Onun yükaşırma qabiliyyəti 25 milyon ton və 1 milyon konteynerdir. Biz dəmir yollarımızı təmir edirik. Biz Bakı gəmiqayırma zavodunda artıq bütün növ gəmiləri istehsal edirik ki, həm öz ehtiyaclarımızı ödəyək, o cümlədən Xəzəryanı ölkələri müasir avadanlıqla təchiz edə bilək. Limanın yaxınlığında biz xüsusi azad zona yaratmışıq və bu coğrafi yerləşmədən istifadə edərək şirkətləri sərmayə yatırmağa dəvət edirik.

Tədbirin aparıcısının təyyarənin vurulması hadisəsindən sonra kəskinləşən Rusiya-Türkiyə münasibətlərinin qısa müddətdə necə düzəlməsi və bu məsələdə rəsmi Bakının mövqeyi ilə bağlı sualına cavab verən Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanın öz qonşuları olan İran, Türkiyə və Rusiya ilə yaxşı münasibətləri var və bu, qarşılıqlı hörmətə əsaslanır. Qonşularımız arasında baş verən gərginliklərin Azərbaycanı da narahat etdiyini və bu cür halların regional sabitliyə təhlükə yaratdığını deyən dövlətimizin başçısı Azərbaycanın Türkiyə-Rusiya münasibətlərinin normallaşmasında fəal iştirak etdiyini bildirdi. Bu məqsədlə həm Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, həm də Rusiya Prezidenti Vladimir Putinlə danışdığını, Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin də vasitəçilik prosesində iştirak etdiyini deyən Prezident İlham Əliyev Türkiyə və Rusiya dövlət başçılarının vəziyyəti qiymətləndirib düzgün qərar verdiklərini vurğuladı. Artıq Azərbaycanın sabitləşdirici amil kimi rolunun artdığını və bunun getdikcə beynəlxalq ictimaiyyət tərəfindən daha çox tanındığını deyən Prezident İlham Əliyev bir neçə gün bundan əvvəl ABŞ və Rusiya Baş qərargah rəislərinin Bakıda keçirilən görüşünü şərh edərək bildirdi:

- Onlar ilk dəfə bizim ölkədə görüşdülər. Bakının seçilməsi qərarı bizim deyildi. Biz bu qarşılıqlı əlaqənin təşəbbüskarı kimi çıxış etməmişdik. Bizə yaxınlaşaraq bizim buna razı olub-olmamağımız soruşulmuşdu. Biz dedik ki, əlbəttə, buna razıyıq. Bəs nəyə görə Azərbaycan seçildi? Mən bu sualı özümə verdim. Avrasiyanın xəritəsinə baxaraq gördüm ki, ola bilsin, Azərbaycan onların görüşə biləcəyi yeganə məkandır. Biz NATO-nun üzvü deyilik. Biz Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü deyilik. Biz güclü beynəlxalq nüfuza malik olan ölkəyik. Biz ABŞ, Avropa və qonşularımız, Rusiya ilə çox yaxşı münasibətləri olan, onların hörmət bəslədiyi ölkəyik. Buna görə də artıq nəinki təkcə bizim regionda, həm də daha geniş miqyasda Azərbaycanın sabitləşdirici amil kimi rolu artacaqdır.

Sonra tədbir müzakirələrlə davam etdirildi. Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin həllindəki fəaliyyəti ilə bağlı suala cavabında Prezident İlham Əliyev bildirdi ki, ATƏT-in Minsk qrupunun həmsədr ölkələri olan Rusiya, ABŞ və Fransa BMT Təhlükəsizlik Şurasının daimi üzvləri kimi təcavüzkara təzyiq göstərməli, onların iştirakı ilə münaqişənin həllinə dair Təhlükəsizlik Şurası tərəfindən qəbul olunan dörd qətnamə yerinə yetirilməlidir. "Ermənistan təkcə Dağlıq Qarabağı yox, həmçinin erməni əhalisinin heç vaxt yaşamadığı ətraf yeddi rayonu da işğal edib", - deyən dövlətimizin başçısı qondarma "Dağlıq Qarabağ rejimi"nin keçirəcəyi "referendum"un tamamilə qanunsuz olduğunu və dünyanın heç bir ölkəsi tərəfindən tanınmadığını bildirdi. Rusiya, ABŞ, Fransa və Avropa İttifaqının artıq Dağlıq Qarabağı müstəqil bir subyekt kimi tanımadığını və bu "referendum"un nəticələrini tanımayacağını bildirən bəyanatlar verdiyini diqqətə çatdırdı.

Azərbaycanın beynəlxalq qurum və təşkilatlarla əlaqələrinə toxunan Prezident İlham Əliyev ölkəmizin Avropa Komissiyasına təklif etdiyi layihə əsasında danışıqlara başlandığını və bu razılaşmanın tezliklə tamamlanacağına ümidvar olduğunu bildirdi. Bununla yanaşı, dövlətimizin başçısı Avropa İttifaqına üzv ölkələrin doqquzu ilə Azərbaycan arasında strateji tərəfdaşlığa dair sazişlərin imzalandığını vurğuladı.

"Avropanın Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında rolu ilə bağlı gözləntiləriniz nədir?" sualına cavabında Prezident İlham Əliyev bildirdi ki, Dağlıq Qarabağda baş verənlərlə bağlı Ermənistana sanksiyalar tətbiq olunmayıb və bu ikili yanaşma aradan qaldırılmalıdır. Dövlətimizin başçısı səylərin birləşdirilməsi və təcavüzkar Ermənistana torpaqları boşaltmaqla bağlı təzyiq göstəriləcəyi təqdirdə münaqişənin tezliklə həll olunacağına ümid etdiyini diqqətə çatdırdı.

Panel-müzakirələrdə Estoniya Prezidenti xanım Kersti Kalyulayd, Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili, Qazaxıstan Senatının sədri Kasım-Jomart Tokayev və Ukraynanın keçmiş Baş naziri Arseni Yatsenyuk da çıxış ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasına işgüzar səfəri fevralın 19-da başa çatıb.

## DƏNİZ NƏQLİYYATI İLƏ YÜKDAŞIMALAR ARTIB






***Cari ilin yanvar ayında havaların əlverişsiz keçməsinə baxmayaraq, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin gəmiləri ilə daşınan yüklərin həcmi artıb. Belə ki, ilin ilk ayında dəniz nəqliyyatı ilə 4676 vaqon daşınıb. Bu, keçən ilin müvafiq dövrü ilə müqayisədə 58% artım deməkdir. 3237 vaqonda quru, 1439 vaqonda isə maye yüklər olub. Ümumilikdə daşınmış yüklərin həcmi 300 515 ton təşkil edib.***

Hesabat dövründə 1368 avtomaşının daşınması isə keçən ilin eyni dövründəki nəticəni 15 faiz üstələməyə imkan verib.

2017-ci ilin yanvarında bütün istiqamətlər üzrə 201 səfər həyata keçirilib. Onların 21-i Ro-Ro tipli gəmilərlə, 180-i bərələrlə gerçəkləşdirilib. 2016-cı ilin eyni dövründə isə 142 səfər edilib. Bu səfərlərin 19-u Ro-Ro, 123-ü bərələrin payına düşür.

Bununla yanaşı, yanvar ayında dəniz nəqliyyatı ilə 1204 sərnişin daşınıb ki, bu göstərici də ötən ilin müvafiq dövrü ilə müqayisədə 167 nəfər çoxdur.

Xatırladaq ki, Gəmiçilik daşımalar üçün online sifariş də qəbul edir. Yükün növü, yüklənmə və gediş limanları, ödəyən şəxs və daşınan nəqliyyat vasitəsi barədə məlumatlar daxil edildikdən sonra biletin qiyməti avtomatik hesablanır. Bu sistem istifadəçi üçün vaxt itkisinin qarşısının alınması baxımından çox əlverişlidir. Tariflər qurumun www.acsc.az internet saytında yerləşdirilib.

## DAYAQ BLOKLARININ İLİN SONUNA KİMİ DƏNİZDƏ QURAŞDIRILMASI NƏZƏRDƏ TUTULUR



***"Şahdəniz-2" üçün tikilən ikinci dayaq bloku bu ilin birinci yarısında dənizdə quraşdırılmaq üçün yola salınacaq.***

Bu barədə BP-nin Bakı ofisinin mətbuat xidmətinin rəhbəri Tamam Bayatlı məlumat verib.

"Şahdəniz-2" üçün tikilən ikinci dayaq blokunun inşası artıq yekunlaşıb. Hazırda blok üzrə bəzi sınaqlar keçirilir və son tamamlama işləri görülür. Ümumilikdə, "Şahdəniz-2" üçün tikilən iki platformanın bütün dayaq blokları və üst modullarının bu ilin sonuna kimi dənizdə quraşdırılması nəzərdə tutulur", - deyə Tamam Bayatlı əlavə edib.

Xatırladaq ki, "Şahdəniz-2" üçün tikilən iki platformadan - hasilat və dikborular platformasının dayaq bloku ötən il sentyabrın 1-də Prezident İlham Əliyevin iştirakı ilə Heydər Əliyev adına Bakı dərin özüllər zavodundan (BDÖZ) dənizdə quraşdırılmaq üçün yola salınmışdı. "BOS Shelf", "Star Gulf" və "Saipem" konsorsiumu tərəfindən inşa edilən dayaq blokunun çəkisi 13 min 150 ton, hündürlüyü isə 105 metrdir. Dayaq bloku 12 hasilat dikborusundan, 3 ixrac dikborusundan və monoetilen qlikol (MEQ) üçün xüsusi ayrılmış bir idxal dikborusundan ibarətdir. Dayaq bloku dənizin 94 metr dərinliyində quraşdırılıb.

Qeyd edək ki, ilk dəfə olaraq "Şahdəniz-2" platformalarının tikintisinin 100 faizi ölkə daxilində həyata keçirilir. Tikinti işləri beynəlxalq standartlara uyğun şəkildə tam modernləşdirilmiş dünya səviyyəli istehsalat obyektləri olan Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda və "Amec-Tekfen-Azfen" tikinti-quraşdırma sahəsində həyata keçirilib.

"Şahdəniz-2"yə bir-birinə körpü ilə birləşdirilən iki yeni hasilat platformasının, iki yarımdalma qazma qurğusundan qazılan 26 sualtı quyunun, suyun 550 metrədək dərinliyində quraşdırılan 500 kilometr uzunluğunda sualtı boru kəmərlərinin inşası və Səngəçal terminalının genişləndirilməsi işləri daxildir.

Layihə çərçivəsində ildə 6 milyard kubmetr qaz Türkiyəyə, qalan həcm, yəni ildə 10 milyard kubmetr Avropadakı alıcılara çatdırılacaq. Yataqdan gündəlik 120 min barrelədək kondensat hasil edilməsi nəzərdə tutulur.

# XOCALI SOYQIRIMINDAN 25 İL KEÇİR

*26 fevral 1992-ci ildə Xocalı şəhərində dünyada misli görünməyən dəhşətli bir vəhşiliyin şahidi olduq. Erməni hərbi quldurları aylarla tam mühasirədə saxlanan Xocalı şəhərini yerlə-yeksan etdilər. Köməksiz mülki əhali azğın bir amansızlıqla qətlə yetirildi. Südəmər körpələrə, əlsiz-ayaqsız qocalara, qadınlara, uşaqlara belə aman verilmədi. Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində tayı-bərabəri olmayan bir vəhşilik aktıdır. Bu soyqırımı eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir.*

*Heydər ƏLİYEV,*
*Ümummilli Lider*

*Xocalı faciəsi təsadüfi hadisə deyildi. Bu, iki yüz ildən artıq müddətdə davakar erməni millətçilərinin Azərbaycan xalqına qarşı yürütdüyü soyqırımı və etnik təmizləmə siyasətinin tərkib hissəsi idi. Bu siyasət erməni diasporunun və lobbisinin imkanlarından istifadə edilməklə bütün dövrlərdə hərbi, iqtisadi, ideoloji və mədəni vasitələrlə aparılmışdır. Keçən əsrin səksəninci illərinin sonlarında isə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları tammiqyaslı hərbi münaqişəyə gətirib çıxardı. Zaman-zaman davam etdirilən bi məkrli siyasət nəticəsində azərbaycanlılar əzəli torpaqlarından qovuldular, didərgin salındılar, yüz minlərlə insan qaçqın və məcburi köçkün vəziyyətinə düşdü.*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*




## GÜNAHKARLAR GEC-TEZ CƏZALARINI ALACAQLAR

***Deyirlər zaman ən böyük təbibdir. Ən ağır yaraları da sağaltmağa qadir təbib. Belədirsə, Xocalı yaramızı sağaltmaq, Xocalı ağrı-acımızı heç olmasa bir qədər yüngülləşdirmək üçün Zaman adlı təbibin nə qədər vaxta - neçə qərinəyə, neçə əsrə ehtiyacı var?***

On doqquz-iyirmi il əvvəl televiziyada Xocalı faciəsi ilə bağlı verilişdən göz yaşlarını saxlaya bilməyən məktəbli qızımın hönkürə-hönkürə mənə verdiyi bir sual hələ də qulağımdan getməyib: “Ata, o gecə sən harda idin?”

Əslində bu, sualdan çox, ittihama bənzəyirdi. Axı uşaqların hamısı atalarını dünyanın ən güclü adamı sayır. Qızıma da elə gəlirdi ki, atası o gecə Xocalıda olsaydı, bir azərbaycanlının burnu belə qanamazdı.

Qızımın nə düşündüyündən asılı olmayaraq, sual məni tutdu. “Doğrudan, o gecə mən harda idim?” Ümumiyyətlə, o gecə və o gecədən çox-çox əvvəl biz - mən, sən, o harda idik ki, qanımıza susamış ermənilər bir neçə saatın içində o boyda şəhəri yerlə-yeksan etdilər? Dinc əhaliyə tutduqları divandan Xocalıda qan su yerinə axdı...

İyirmi beş il əvvəl fevralın 25-dən 26-na keçən gecə xüsusi qəddarlıqla törədilmiş Xocalı qətliamı ermənilər tərəfindən xalqımıza qarşı həyata keçirilən soyqırımı siyasətinin davamı idi. Naqasaki, Xirosima, Xatun, Lidisa, Qradur soyqırımları ilə müqayisə edilən Xocalı faciəsi əslində qəddarlığın, amansızlığın dərəcəsinə görə, dünyanın şahid olduğu bütün qətliamları kölgədə qoyur. Bəli, Xocalıda törədilmiş soyqırımı qeyri-insani cəza üsullarına görə, tarixdə ən dəhşətli cinayət aktıdır. Azərbaycanlı olduğum üçün belə qənaətə gəldiyimi düşünənlərə Xocalıya hücumdan sonra hadisə yerinə tələsən erməni yazıçısı Zori Balayanın bir etirafını xatırlatmaq istəyirəm: “ Xocalıda evlərdən birinin divarına 11 yaşlı türk qızının mismarlandığını gördüm. Türklərə olan nifrətimi hələ də can verən qızın sinəsindən dərinin qopardılması ilə soyutmağa çalışdım”.

Bu, erməni yazıçısının, erməni “ziyalısının” dilindən çıxan sözlərdir. İndi təsəvvür edin, “ziyalı” olmayan ermənilər dinc azərbaycanlıları qətlə yetirəndə - başlarını, qollarını, barmaqlarını kəsəndə, gözlərini çıxaranda, hamilə qadınların qarınlarını yaranda, soydaşlarımızı diri-diri yandıranda... nə “ləzzət” alıblar. Rəsmi məlumatlara görə, erməni təcavüzkarları bir gecədə Xocalıda 613 dinc sakini, o cümlədən 106 qadını, 63 uşağı, 70 ahıl insanı amansızlıqla, 56 nəfəri xüsusi qəddarlıq və işgəncə ilə qətlə yetiriblər. 487 nəfəri ömürlük şikəst ediblər ki, onların da 76-sı azyaşlı uşaqlardır. Səkkiz ailə tamamilə məhv edilib, 25 uşaq hər iki, 130 uşaq isə valideynlərindən birini itirib. 1275 azərbaycanlı erməni quldurları tərəfindən əsir götürülüb. Xocalı faciəsi zamanı 155 azərbaycanlı isə itkin düşüb.

Ulu öndərimiz Heydər Əliyev Xocalı faciəsinin 3-cü ildönümü ilə bağlı keçirilən matəm mərasimində demişdir: “Tarixdə insanın insana qarşı vəhşilik etməsi halları dəfələrlə qeyd olunub. Soyqırımı da dünyanın bir çox yerlərində baş vermişdir. Azərbaycana qarşı erməni qəsbkarları, təcavüzkarları tərəfindən edilən soyqırımı bunların ən dəhşətlilərindən biridir. Uzun müddət, demək olar ki, XX əsr ərzində Azərbaycan xalqına, millətinə qarşı Ermənistan təcavüzkarları tərəfindən olunan soyqırımları xalqımıza böyük yaralar vurmuşdur. Onların arasında ən böyük, ən ağır yaralardan biri Xocalı soyqırımıdır, altı il davam edən müharibədir.

Xocalı hadisələri bir daha onu göstərdi ki, ermənilər Azərbaycanın təkcə torpaqlarına göz dikmək, ərazimizi qəsb etmək yox, xalqımıza qarşı soyqırımı törətmək kimi vəhşi bir yola düşmüşlər. Bu, Xocalı hadisələrində özünü açıq-aşkar büruzə verdi. O dəhşətli gecədə Azərbaycan xalqının ürəyinə bir süngü taxıldı. O süngü indiyədək bizi sızıldadır. Bu yara hələ sağalmayıb, bağlanmayıb, bu yara qəlbimizdə həmişə olacaqdır. Qeyd etdiyim kimi, gecə vaxtı dinc əhaliyə hücum etmək, uşağı, qadını, qocanı, xəstəni vəhşicəsinə yerindəcə məhv etmək, öldürmək və onlara görünməmiş qəddarlıqla əzab-əziyyət vermək düşmənlərimizin nə qədər vəhşi olduğunu bir daha sübut edir.”





Amma əfsus ki, Xocalı faciəsinin ağırlığı o zamankı Azərbaycan hakimiyyəti tərəfindən lazımınca qiymətləndirilmədi. Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması üçün cəhd göstərilmədi. Məhz Ulu öndər Heydər Əliyev xalqın təkidi ilə hakimiyyətə gələndən sonra Xocalı faciəsi ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırımı aktı kimi təsbit olundu və dünyada tanıdılması istiqamətində xeyli iş görüldü. 1997-ci il fevralın 25-də “Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında” fərman verildi. Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə qətliama obyektiv qiymət verilməsi siyasətini bu gün dövlətimizin başçısı möhtərəm İlham Əliyev qətiyyətlə davam etdirir. Bu istiqamətdə görülən işlər artıq daha ciddi nəticələr verməkdədir.



“Böyük Ermənistan” xülyası ilə yaşayan xain qonşularımız öz sərhədlərini Azərbaycan torpaqları hesabına genişləndirmək kimi məkrli niyyətlərinin reallaşdırılmasına çoxdan başlayıblar. Keçən əsrin əvvəlindən 500 mindən çox azərbaycanlının ermənilər tərəfindən öldürülməsi, azərbaycanlılar yaşayan 6 min kvadratkilometrlik əzəli Azərbaycan torpaqlarının zorla boşaldılması, həmin ərazilərdə 1milyondan çox azərbaycanlının zorla qovulması, 2 minə yaxın Azərbaycan mənşəli yaşayış yerlərinin tarixi adının dəyişdirilməsi, hal-hazırda ərazimizin 20 faizinin erməni hərbi birləşmələrinin işğalı altında olması xalqımıza qarşı soyqırımın planlı, ardıcıl həyata keçirildiyini sübut edir. Bəd əməllərini gerçəkləşdirmək üçün canavar kimi həmişə pusquda durmuş, fürsət, məqam gözləmişlər. Belə fürsətlərdən birini də onlara keçən əsrin axırlarında SSRİ-nin rəhbərliyinə gələn ermənipərəst M. S. Qorbaçov verdi. Amma nə qədər ki, Ulu öndərimiz Heydər Əliyev Moskvada rəhbər vəzifədə idi, buna cəsarəti çatmırdı. Ulu öndərimiz Sov. İKP Siyasi Bürosundan uzaqlaşdırıldıqdan sonra ermənilər dərhal hərəkətə keçdilər. Qorbaçovu əhatə edən, ona yol göstərən yüksək çinli ermənilər Azərbaycana qarşı ərazi iddiaları səsləndirdilər. Dağlıq Qarabağ Muxtar Vilayətindəki erməni separatçı-terrorçu “Krunk” təşkilatı açıq fəaliyyətə başladı. Yerevanda Azərbaycan Respublikası torpaqlarının Ermənistana birləşdirilməsi tələbinin SSRİ rəhbərliyi tərəfindən sakit, müqavimətsiz qarşılanması erməniləri bir az da azğınlaşdırdı. 1988-ci ildə öz tarixi torpaqlarında yaşayan 250 min azərbaycanlını qovmaqla Ermənistanı monoetik dövlətə çevirən ermənilər onlara “Gözün üstə qaşın var” deyənin olmadığını görüb sərhədləri aşmaqla Azərbaycan Respublikasının ərazilərini zəbt etməyə başladılar. Artıq Azərbaycana qarşı açıq və ədalətsiz müharibə aparan Ermənistan hərbi birləşmələri Dağlıq Qarabağadakı erməni separatçıları ilə birləşərək 1991-ci ilin oktyabrında Tuğ və Sələkətin, az sonra Xocavənd kəndlərini işğal etdilər. Sonralar Axullu, Malıbəyli, Quşçular, Qaradağlı... erməni işğalçılarının nəzarəti altına keçdi. Artıq Xocalı istiqamətində yaşayış məntəqələri ermənilər tərəfindən tutulmuşdu. Və növbəti hədəf Xocalı idi...

Xocalı Xankəndidən 19 kilometr cənub-şərqdə, Ağdam-Şuşa, Əsgəran-Xankəndi yollarının üstündə yerləşirdi. O vaxt Qarabağda yeganə hava limanının Xocalıda olması ermənilərin yeddi min əhalisi olan bu şəhərə iştahasını daha da artırırdı.

Bəs biz onda harda idik? Bütün bunları görmürdük? Bu sualı Ulu öndərimizin sözləri ilə cavablandırmaq istəyirəm: “Xocalı faciəsinin baş verməsində Azərbaycanın o vaxtkı rəhbərliyi, hakimiyyət orqanları böyük məsuliyyət daşıyırlar. Uzun müddət mühasirə şəraitində, güclü düşmənlə üzbəüz, mərdliklə vuruşan yerli əhalidən fərqli olaraq, hər bir vətəndaşın müdafiəsini təmin etməyə borclu olan respublika rəhbərliyi o zaman tam fəaliyyətsizlik və xalqın taleyinə biganəlik göstərmiş, əsas diqqəti hakimiyyət uğrunda mübarizəyə yönəltmişdir. Ən acınacaqlısı odur ki, sonralar da Xocalı hadisələrindən erməni terrorçularının vəhşi əməllərinin mahiyyətini ifşa etmək istiqamətində deyil, siyasi çəkişmələrdə istifadə olunmuşdur.”





XX əsr dünya tarixinin ən qəddar soyqırımı aktı olan Xocalı faciəsi haqqında tarixi həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün bu gün çox iş görülür. “Xocalıya ədalət!” bəşəriyyəti terror nəticəsində zülm və işgəncələrdən əziyyət çəkən milyonlarla insanın taleyi uğrunda mübarizəyə çağırışdır.

“Xocalıya ədalət!” beynəlxalq məlumat kampaniyası Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci il mayın 8-də - Şuşanın işğalı günü irəli sürülüb. Faciənin mənəvi və siyasi-hüquqi tanınmasına yönəlmiş bu kampaniya dünyanın bir çox ölkələrində uğurla həyata keçirilir.

“Xocalıya ədalət!” bəşəriyyəti haqsızlığa, zülmə və zülmkarlığa, terrorçuluğa qarşı mübarizəyə səsləyir. “Xocalıya ədalət!” Xocalı faciəsinin əsl mahiyyətini, cinayətkarları və onların havadarlarını dünyaya bəyan etməklə, ikili standart mövqeyində dayanmış ayrı-ayrı dövlətləri, bəzi beynəlxalq təşkilatları haqqın səsinə səs verməyə çağırır. “Xocalıya ədalət!” beynəlxalq qurumları insan hüquqları və azadlıqları haqqında qəbul edilmiş qərarlara hörmətlə yanaşmağa çağırır.

Azərbaycan xalqı 1948-ci il 9 dekabr “Soyqırımı cinayətinin xəbərdarlıq edilməsi və cəzalandırılması” konvensiyasını rəhbər tutaraq, Ermənistan Respublikasına qarşı BMT-nin Beynəlxalq məhkəməsində iddia qaldırmaq üçün bütün hüquqi əsaslara malikdir. Həm də bu cinayət, təkcə Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyətə qarşı yönəldilib.

25 ildir Azərbaycanın Xocalı adlı şəhərindən əsər-əlamət yoxdur. Sağ qalan xocalılılar 48 şəhər və rayonun 500-dən çox kənd və qəsəbəsində müvəqqəti məskunlaşıblar.

Doğma yurdlarından didərgin düşmüş Xocalı sakinləri dövlətin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunsalar da, onlar Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, Ermənistanın Azərbaycana qarşı təcavüzünün dəf edilməsi, ölkənin ərazi bütövlüyünü bərpa olunması, günahkarların beynəlxalq məhkəmə qarşısında cavab verəcəkləri ümidi ilə yaşayırlar.

Heç bir cinayət, xüsusilə də insanlığa qarşı törədilmiş cinayət cəzasız qalmamalıdır. Və Xocalı faciəsinə imza atanlar da cəzasız qalmayacaq. Həm də ona görə ki, artıq Azərbaycan da 25 il əvvəlki ölkə deyil. Azərbaycan yüksəliş, tərəqqi dövrünü yaşayır, gündən-günə qüdrətlənir. Bu gün Azərbaycan hərbi qüdrətinə görə istənilən təcavüzkarı yerində otuzdurmağa, ona həddini göstərməyə qadirdir. Bu gün Azərbaycan beynəlxalq aləmdə söz yiyəsi, nüfuz yiyəsidir. Elə buna görə, aparıcı dövlətlər Azərbaycanla hesablaşırlar, Ermənistanın işğalçı dövlət olduğunu təsdiqləyirlər. Qaldı işğalçı Ermənistanın işğalçı ordusunun işğal etdiyi torpaqlarımızdan çıxarılmasına, bunu öz xoşları ilə etməsələr, elətdirməyə gücümüz, qüvvəmiz çatar! Bunun üçün Ali Baş Komandanımızın bircə əmri kifayətdir. Və o əmr verilən gün Milli Ordumuzun əsgərlərindən biri də şübhəsiz ki, bu sətirlərin müəllifi olacaq...





***Rasif TAHİROV***

# XOCALININ QİSASI QİYAMƏTƏ QALMASIN!





*(İxtisarla)*

**Görəsən çox oturub,
Çox duracaq bu dünya
Yalançının, rəzilin,
Riyakarın, xəbisin,
Tamahına əsirin,
Qulların dəhşətlisi -
"Qulların ən pisi"nin
Söhbətiylə, sözüylə?
Yumub öz gözlərini,
Çox şeyə çox baxacaq
Erməninin gözüylə?
Hardan yaranıb görən
Yaxşı işə yarımaz,
Haqq, ədalət tanımaz,
Dünyanın ən yaramaz,
Ən vicdansız, ən qanmaz,
Ən məkrli, ən namərd,
Ən hiyləgər, ən xain,
Ən qaniçən, ən vəhşi
Millətinə bu sevgi?
Dünyada çox "oyun"un,
Faciənin, qırğının
Baisi, səbəbkarı
Gözü qandan doymayan
Ermənilər deyil ki?!
Nə vaxt bitəcək görən
Erməni xəyalına-
Uydurma, yalanına
Bu məhəbbət, bu həvəs?
Nə vaxt bilmək istəyər,
Nə vaxt biləcək dünya
Əsl həqiqəti bəs?
Nə vaxt xəbər tutacaq
Sonsuz hikkələrindən,
Saysız kələklərindən?
Nə vaxt xəbər tutacaq
"Dənizdən dənizədək"
"Gizli" planlarından?
Nə vaxt xəbər tutacaq
Vəhşi əməllərindən?
Nə vaxt biləcək görən
Qanıma susamışın
Türkün torpaqlarında
Baş kəsmək olub işi,
Dünyanın dörd yanına
Yalan, iftira, böhtan,
Şər əkmək olub işi?!
Nə qadını xanımdı,
Nə kişisi bir kişi.
Nə vaxt biləcək, nə vaxt?
Nə vaxt? Haçan? Nə zaman?**

***

**Belə qırğın, qətliam
Nə vaxtsa olubdu ki?
Bəşər yaranan gündən
Hətta ən zalım ordu
Belə qəddarlıq ilə
Dinc, günahsız insanı
Səbəbsiz qırıbdı ki?
Əliyalın olanın
Əllərini dibindən
Kəsib, qoparıbdı ki?
Gəlinlərin bətnində
Körpəyə qıyıbdı ki?
Südəmər uşaqların
Gözünü oyubdu ki?
Dərisin soyubdu ki?
Anaların döşünü
Dibindən qopararaq
Ağlayan körpəsinin
Ağzına basıbdı ki?
Cəsədlərin üzünə,
Qulağına, gözünə,
Ayağına, dizinə
Süngü ilə, biz ilə,
Güllə ilə, köz ilə
İnsanlığa yaraşmaz
Bir iftixar, qürurla
Adını yazıbdı ki?
Bu dəhşətli səhnəyə
Baxdıqca, vəcdə gəlib
Qol açıb, süzübdü ki?
Sevinclə, qəhqəhəylə
Atılıb-düşübdü ki?!**



***

**O gecə ermənilər
Gəzdikləri fürsətdən
Kim deyir keçəsiydi?
O gecə Xocalının
Səhəri açılmayan
Sonuncu gecəsiydi.
Düzlər cəsədlə doldu,
Gözlər dəhşətlə doldu.
Şaxtadan, soyuqdan çox
Üzlər əzabdan dondu...
Körpənin özü orda,
Qolu başqa yerdəydi,
Qıçı başqa yerdəydi...
Kəsilmiş başı orda,
Gözü başqa yerdəydi...
Ən vəhşi heyvan belə
Nə qədər ac olsa da
İnana bilmərəm ki,
Bu qədər qəddarlıqla
Parçalasın ovunu.
İtdən betər olana,
Qurddan betər olana
İnsan demək olarmı?
Mən necə insan deyim?
Dünya nə deyir desin,
Dığa desin, hay desin,
"Yazıq" desin, can desin,
Canını qurban desin...
Qəsdimə duranlara,
Körpədən böyüyədək
Heç kəsə rəhm etməyib,
Beləcə qıranlara
Mən niyə insan deyim?**

***

**O vaxtdan qurumayır
Gözümün yaşı mənim.
O vaxtdan da söz ilə
Ovundurmaq istəyir
Hər gələn naşı məni.
Ona-buna inanmaq
Mənə nə verdi axı?
İnandıqca, üstümə
Düşmən yeridi axı.
At oynatdığı yerlər
Mənim yerimdi axı.
Mənim torpağım-daşım,
Mənim yurdumdu axı.
Çoxmu gəzdirəcəyəm
Sinəmdəki bu dağı?
Özü öz xoşu ilə
Çıxıb gedəndi yağı?
Onda arxası böyük,
Onda arxayın idi.
Yer ona arxa idi,
Göy ona arxa idi -
Şaxta, çovğun, boran, qar,
Qış ona arxa idi.
Ayaqyalın qaçanın
Qar üstə qaldı izi,
İz ona arxa idi...
Onda arxasız idim,
İndi nə olub axı?!
Arxam Azərbaycanım!
Onda ordum yox idi,
Onda gücüm yox idi.
Onda əli yalındım,
Onda böyük qonşumu
"Böyük qardaş" sayırdım,
Onda bəlli, yanıldım,
Onda bəli, yanıldım,
Bir də onda ayıldım,
Nə əlimdə silah var,
Nə cibimdə bir qəpik.
Ayılanda gec idi,
Qarabağım yanırdı...
Onda belə alındı,
İndi nə olub axı?
Ordum - müzəffər ordu,
Bir günə təmizləyər
Yağılardan bu yurdu!
Bir də biz! – doqquz milyon,
Əmrinə müntəzirik
Ali Baş Komandanın!
Qisas vaxtı deyil ki?!
Qiyamətə nə qalsa
Mənim üçün dərd deyil.
Amma nə olur-olsun,
Yerlə-yeksan edilən
Xocalının qisası
Qiyamətə qalmasın!
Eşidirsən, ay oğul?
Eşidirsən, ay iğid?
Eşidirsən, qardaşım?
Eşidirsən, yoldaşım?
Eşidirsən, adaşım?
Eşidirsən, yaddaşım?
Canı canımdan olan
Eşidirsən sən məni?
Qanı qanımdan olan
Eşidirsən sən məni?
Ağrımı öz ağrısı
Sayanlar eşitsinlər,
Kədərimi, dərdimi
Duyanlar eşitsinlər.
Ayıqlar eşitsinlər,
Sayıqlar eşitsinlər,
Erməni, torpağımdan
Özü çətin çıxası,
Ağlını öz başına**



**Bir də nə vaxt yığası?
Başına yığsa belə,
Çəkinir ağasından –
Nə deyəcək ağası?
Əldə qalar yaxası...**

***

**Onda belə alındı,
Onda əli yalındım,
İndi nə olub axı?
Mən hazır, ordum hazır!
Düşmən də neçə ildir
Əzəli torpağımda
Özünə qəbir qazır...
Yaşım əllini keçib,
Xocalısız bir ömrün
Nə baharı, nə yazı?
Bəlkə son şeirimdi bu,
Bəlkə, bəlkə son yazım,
Bəlkə gələn bahar da
Son baharım - son yazım.
Uzun sözün qısası:
Canı canımdan olan,
Eşidirsiz siz məni?
Qanı qanımdan olan,
Eşidirsiz siz məni?
Xocalının qisası
Qiyamətə qalmasın!
Qalmasın a..., qalmasın!**

***

**Dediyin hər kəlmənin,
Sözün üstündə durdun,
Qısa vaxtda yenilməz,
Qüdrətli ordu qurdun,
Ali Baş Komandanım!
Xalqımızın torpağa
Sevgisi də bir ordu,
İmanı da bir ordu,
Orduya etibarı,
İnamı da bir ordu.
Əmr ver, səsi gəlsin
Xocalıdan, Laçından,
Şuşadan... ordumuzun.
Əmr ver, xilas edək
Yağıdan yurdumuzu.
Dikəltsin sevincindən
Belini hər dağımız,
Dalğalansın yurdumun
Hər qarış torpağında
Üçrəngli bayrağımız!**

*Rasif İMANOĞLU*

# "ŞAMAXI" GƏMİSİNİN TƏYİNATI DƏYİŞDİRİLİR










**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-yə məxsus "Şamaxı" tankerinin təyinatı dəyişdirilir. 1988-ci ildən sular qoynunda fasiləsiz neft və neft məhsulları daşıyan gəmi əsaslı təmir və yenidənqurmadan sonra təmizləyici stansiya kimi fəaliyyət göstərəcək.**

Gəminin təmiri xüsusi layihə əsasında həyata keçirilir. Layihəyə əsasən, "Şamaxı"da yeni təyinatlı sistemlər quraşdırılacaq, saatda 7 kubmetr məhsuldarlığa malik iki buxar qazanı qoyulacaq ki, bu da tələbatı tam ödəyə biləcək. Onun gövdə və sualtı hissələri də təmir olunacaq. "Bibiheybət" Gəmi Təmiri Zavodunda aparılan işlərin yekununda "Şamaxı"nın rənglənməsi də nəzərdə tutulur.

Stansiya hərəkətsiz qalmayacaq, zərurət yarananda başqa limanlarda gəmilərə operativ xidmət göstərmək üçün üzə biləcək. Yəni, baş mühərrikləri işlək vəziyyətə gətiriləcək. Bu məqsədlə hazırda təmirlə paralel, sənədləşdirmə işləri də aparılır. Təmizləyici stansiyanın cari ilin iyulunda istifadəyə verilməsi planlaşdırılır.

Xatırladaq ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin əvvəllər də təmizləyici stansiyası olub. Həmin gəmi istismar müddətini başa vurduğundan yenisinə ehtiyac yaranıb. Köhnə təmizləyici stansiyanın da üstündən birdəfəlik xətt çəkilməyəcək. Belə ki, onun gələcəkdə muzeyə çevrilməsi nəzərdə tutulur.

# ABŞ CƏNUBİ ÇİN DƏNİZİNƏ AVİADAŞIYICI ZƏRBƏ QRUPU GÖNDƏRİB

***ABŞ "Carl Vinson" aviadaşıyıcısı başda olmaqla, gəmilər qrupunu Cənubi Çin dənizinə göndərib.***

Bu barədə ABŞ hərbi-dəniz qüvvələrinin mətbuat xidməti məlumat yayıb. Məlumatda qeyd edilir ki, aviadaşıyıcı zərbə qrupu fevralın 18-dən Cənubi Çin dənizində patrul xidmətinə başlayıb. Zərbə qrupuna "Carl Vinson" aviadaşıyıcısı ilə yanaşı, "Aegis" zenit-raket kompleksi ilə təchiz olunmuş "Wayne E. Meyer" minadaşıyan eskadra gəmisinin də daxil olduğu bildirilir.



Regiona göndərilənədək qrupa daxil olan gəmi və təyyarələrin Havay və Quam adaları rayonunda hərbi əməliyyatlarla bağlı təlimlər keçdiyi qeyd edilir. Bununla yanaşı, qrupun Quama daxil olma və Filippin dənizində əməliyyatlar üzrə təlimlər keçdiyi də deyilir. Qrupun komandiri kontr-admiral Ceyms Kilbi bəyan edib ki, son həftələrdə keçirilən təlimlər hərbi hazırlığın keyfiyyətcə yüksəldilməsinə xidmət edib. C.Kilbi vurğulayıb ki, qrup Hind-Asiya-Sakit okean regionunda müttəfiqlər, tərəfdaşlar və dostlarla birlikdə həmin bacarıqları nümayiş etdirməyə hazırdır.

ABŞ-ın yeni dövlət katibi Reks Tillerson da vəzifəsinin icrasına başlamazdan əvvəl bəyan etmişdi ki, ABŞ Cənubi Çin dənizində Çinə mübahisəli adalarla bağlı hərəkətlərinin yolverilməzliyi barədə "aydın siqnal" göndərməlidir. O, həmçinin Çin tərəfindən dənizdə salınan süni adaları qeyri-qanuni adlandırmışdı.

*Vüqar Ağayev*

# NƏHƏNG TANKER 57 MİLYON DOLLARA SATILIB



***Dünyanın ən böyük tankerlərindən olan 320 min 105 DWT (Dead Weight Tonaj) xam neft daşıma gücünə malik "M/t ORTHIS" 57 milyon dollara "Cardiff Marine" şirkətinə satılıb.***

Tanker əvvəllər mərkəzi ofisi Yunanıstanda yerləşən "Gulf Marine" şirkətinin mülkiyyətində olub.

"ORTHIS" tankeri 2011-ci ildə Koreya Respublikasının "Daewoo" zavodunda inşa edilib. Uzunluğu 333 metr, eni 60 metr olan tanker 320 min 105 DWT xam neft daşıma gücünə malikdir.

# DƏNİZÇİLƏRİN HAZIRLIĞININ YAXŞILAŞDIRILMASI MÜZAKİRƏ OLUNUB

***Londonda Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının iştirakı ilə dəniz qəzalarının araşdırılmasından əldə edilən biliklərin dənizçilərin hazırlığının yaxşılaşdırılmasına tətbiqi yolları müzakirə olunub.***

Administrasiyanın mətbuat xidmətindən bildirilib ki, müzakirələr Londonda Beynəlxalq Dəniz Təşkilatının Baş Qərargahında, İnsan amili, təlim və növbəçəkməyə dair Alt Komitənin 4–cü sessiyası zamanı aparılıb.

Dövlət Dəniz Administrasiyasının əməkdaşları Vüsal Mustafayev və Nuri Nuriyevin iştirak etdikləri iclasda dəniz qəzalarının araşdırılmasından əldə edilən biliklərin dənizçilərin hazırlığının yaxşılaşdırılmasına tətbiq edilməsi yolları müzakirə olunub. Alt Komitədə, həmçinin dənizçilərin yorğunluq və yorğunluq riskinin idarə olunmasına dair anlayışların daha da təkmilləşdirilməsi, yorğunluq və yuxu haqqında cari araşdırmaların və yorğunluq hallarının aradan qaldırılmasına dair təcrübələrin əks olunması üçün "Yorğunluğun aradan qaldırılması və idarə edilməsi üzrə Təlimat"ın yenilənməsi və yenidən baxılmasına dair işlər müzakirə edilib. Eyni zamanda, "Balıqçı gəmi heyətinin hazırlanmasına, onlara diplom verilməsinə və növbəçəkməyə dair Beynəlxalq konvensiya"ya (STCW-F) ətraflı nəzər salınaraq, "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbəçəkməyə dair Beynəlxalq konvensiya"ya (STCW) 2010-cu ildə edilmiş əlavələrin həyata keçirilməsi, Beynəlxalq Dəniz Təşkilatının bir sıra model kurslarının Manila dəyişikliklərinə uyğunlaşdırılması məqsədilə işçi qrupları tərəfindən hazırlanan model kursları müzakirə olunub. Həmin kursların təsdiq olunması üçün Dəniz Təhlükəsizliyi Komitəsinə göndərilməsi barədə qərar qəbul edilib.





# İLK SƏFƏRİNƏ 1984-CÜ İLDƏ ÇIXAN "DAĞISTAN" BƏRƏSİ MODERNLƏŞDİRİLİR

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "Dağıstan" gəmi-bərəsi "Zığ" Gəmi Təmiri Zavodunda əsaslı təmirə dayanıb.***

Hazırda "Dağıstan" bərəsinin istifadəetmə müddəti bitmiş iki köməkçi mühərriki "Hyundai" markalı mühərriklərlə əvəzlənib. 1000 kilovat gücündə olan təzə mühərriklər əvvəlkilərlə müqayisədə daha qənaətcil və effektivdir. Bu mühərriklər avadanlığa göstəriləcək xidməti asanlaşdırmaq baxımından da sərfəlidir.

Köməkçi mühərriklərlə yanaşı, gəminin əsas hərəkətverici qüvvəsi olan baş mühərrikləri də yenilənir. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi təzə baş mühərrikləri Finlandiyadan sifariş edib. "Wartsila" markalı W32 baş mühərriki dünya gəmiqayırma sahəsində lider brendlərdən hesab olunur. Bir sözlə, həddindən artıq ağır çəkiyə malik köhnə mühərriklərdən fərqli olaraq yeniləri öz funksionallığı ilə seçilir.

Təmir zamanı "Dağıstan" gəmi-bərəsinin bütün idarəetmə sistemləri dəyişdirilərək daha müasirləri ilə əvəz edilir. Hazırda yanacaq yandırma sistemləri əvəzlənməklə buxar qazanı müasirləşdirilir. Bundan başqa, pərlərə nəzarət sistemi, köməkçi burun sükanı, radionaviqasiya və elektrik avadanlıqları, generatorları da təzələri ilə əvəzlənir. Bərənin bütün köməkçi - yağ, su, balast sistemləri və sair əsaslı təmir olunur.

Gəmi-bərə tərsanəyə qaldırılacaq, onun gövdə və sualtı hissələri də təmir olunandan sonra rənglənəcək.









Görüləcək təmir işləri bərənin yanacaq sərfiyyatını 35 faizə qədər azaltmağa imkan verəcək. Yekunda yeni avadanlıqların sərfiyyatını dəqiqləşdirmək məqsədi ilə gəmi sınaqdan keçiriləcək. Bərə əvvəlki kimi, Xəzərin sularında 12-14 uzellə səfərlərini davam etdirəcək.

Məlumat üçün bildirək ki, yükgötürmə qabiliyyəti 2425 ton olan "Dağıstan" bərəsi 1984-cü ildə istifadəyə verilib. Bərənin avtomobil və vaqon daşımaq üçün 2 göyərtəsi var. Alt göyərtə avtomobil, üst göyərtə isə vaqon daşımaq üçün nəzərdə tutulub.

Xatırladaq ki, Xəzərdə yeganə bərə operatoru olan "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin 13 gəmi-bərəsi Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yüklərin daşınmasına xidmət edir.

## "DƏNİZ QAPISI"NIN TİKİNTİSİNİN BİRİNCİ MƏRHƏLƏSİ BU İL BAŞA ÇATDIRILACAQ

***Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının bu ilin ilk yarısında tikintisinin birinci fazası yekunlaşacaq. Həmin fazada limanın yükaşırma qabiliyyəti 50 min TEU və 10 milyon tondan çox nəzərdə tutulub.***

Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının üçüncü ilinin yekunlarına həsr olunan konfransda Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisinin birinci mərhələsinin bu il başa çatdırılması ilə bağlı tapşırıq verib.

Ələt Beynəlxalq Dəniz Ticarət Limanının birinci fazasında 2 bərə körpüsü fəaliyyət göstərəcək. Limanda 2 Ro-Ro körpüsü və 5 quru yük körpüsü olacaq.

Bundan əlavə 5 quru yük körpüsündən 2-si ağırtonnajlı yüklərin aşırılması üçün nəzərdə tutulub. Digər 3 körpü sırf quru yük və konteyner daşıması üçün planlaşdırılıb.





## GÖLLƏRİN EKOLOJİ XÜSUSİYYƏTLƏRİNİ ƏKS ETDİRƏN KADASTR HAZIRLANIB

***İlk dəfə respublikamızın böyük göllərinin hidrobiokimyəvi və ekoloji xüsusiyyətlərini əks etdirən kadastr hazırlanıb.***

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Geologiya və Geofizika İnstitutundan verilən məlumata görə, bununla yanaşı, ilk dəfə su səthinin sahəsi bir kvadratkilometr olan 26 böyük gölün morfometrik parametrləri, kompleks hidrobiokimyəvi proseslərin qanunauyğunluqları müəyyənləşdirilib, inkişaf istiqamətləri proqnozlaşdırılıb. Bundan əlavə, geofiziki tədqiqatlarla yeddi gölün sahil zonasında ekzogen proseslərin ehtimal olunan proqnozu hazırlanıb.

Eyni zamanda, ötən il Bakının Bayıl yamacında və Bibiheybətin şərq yamacında sürüşmə proseslərinin öyrənilməsi ilə əlaqədar geofiziki tədqiqatlar aparılıb. Potensial risk zonası kimi qiymətləndirilən hər iki ərazidə çökmə, sürüşmə və uçqun proseslərinin baş verəcəyi ehtimalı müəyyənləşdirilib.

# AXDG-NİN 160 İLLİYİ QARŞISINDA

## ƏZİZ OXUCULAR!

***2018-ci il çoxminli kollektivimiz əlamətdar tarixi - Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyini qeyd edəcək. Razılaşarsınız ki, fəxr edilməli tarixdir – Azərbaycanda bu yaşda olan müəssisələr barmaqla sayılacaq qədərdir. Tarixi hadisəyə bir il qalmış bu barədə söz açmağımız isə sizlərə təəccüblü gəlməsin. O vaxta kimi haqqında söhbət açılası o qədər insanlar, yada salınacaq o qədər hadisələr var ki...***

Əlbəttə ki, Gəmiçiliyin möhkəm bünövrəyə malik olub, tarixin bütün sarsıntılarına sinə gərməsinin əsas səbəbkarları öz bilik və bacarıqlarını, qüvvə və səriştələrini, hətta bəzən öz həyatlarını belə əsirgəməyən Şəxsiyyətlərdir.

Gəmiçiliyin tarix salnaməsinə fədakar əməkləri ilə donanmalarının, sahil müəssisə və təşkilatlarının inkişafına əvəzolunmaz töhfələr vermiş neçə-neçə Şəxsiyyətin adı yazılmışdır. Bugün kollektivimizdə mövcud olan əmək ənənələrinə, çoxsaylı dənizçi sülalələrinə görə məhz onlara borcluyuq. Biz onlarla qürur duyur, özlərinə doğma saydıqları Gəmiçiliyə ən ağır vaxtlarda belə sadiq qalıb, vicdanla xidmət etdiklərini gənc nəslə örnək göstəririk. Onları unutmağa haqqımız yoxdur!

Bu məqsədlə biz "Unutsaq, unudularıq" adlı rubrika açırıq. Rubrikada həmin Şəxsiyyətlər barəsində yazılar dərc edəcəyik. İstəyimiz - bacardığımız qədər onları sizə tanıtmaqdır. Əminik ki, yaxından tanıyandan sonra onlara ən azından bizim qədər hörmətiniz olacaqdır, çünki onlar həqiqətən belə münasibətə layiqdirlər.

Beləliklə, dörd yüz ildən bəri davam edən dənizçilər sülaləsinin görkəmli nümayəndəsi Hacı Vahab Əliqulu oğlu və Bakı dənizçilik siniflərinin ilk azərbaycanlı məzunu Süleyman İsmayıl oğlundan bəhs edən yazılarımızı diqqətinizə təqdim edirik.

## "Unutsaq, unudularıq"

## HƏR DİPLOMLU KAPİTAN HACI VAHAB OLMAZ



Hacı Vahab Əliqulu oğlu 1855-ci ildə Bakıda – İçərişəhərdə anadan olub. Artıq dörd yüz il davam edən böyük dənizçilər sülaləsinin bünövrəsini qoymuş ulu babası Hacı Zeynalabdin kimi gəmi kapitanı olub. Dənizçilik peşəsinin sirlərinə çox erkən, hələ uşaq yaşlarından yiyələnməyə başlayıb. Tezliklə Xəzərdə ən təcrübəli kapitan kimi ad çıxarıb. Savadı olmayıb. İmza yerinə xətt çəkən Hacı Vahab bununla belə, o dövrün bir çox kapitanlarından fərqli olaraq diplomlu kapitan olub.

Hacı Vahabın diplom almasının maraqlı tarixçəsi var. 1909-cu ildə Xəzər hərbi donanmasına məxsus "Araks" gəmisi saya oturur. Gəminin ağır gövdəsi yarıyadək torpağa girir. Ən güclü yedək gəmiləri, bir həftə çalışsalar da "Araks"ı heç yerindən tərpədə bilmirlər. Çarəsiz qalan komandan haqqında eşitdiyi kapitanı İçərişəhərdən yanına çağıtdırır. Hacı Vahab öz "Nobel" yedək gəmisində körpüyə yan alanda, gəmini görənlərdə problemin həll ediləcəyinə şübhə yaransa da, komandan məcburiyyətdən gəminin saydan çıxarılması əməliyyatının Hacı Vahaba həvalə edilməsi haqqında əmr imzalayır. Və Hacı Vahab bir həftə ərzində diplomlu kapitanların yerindən tərpədə bilmədikləri "Araks"ı on iki saata saydan çıxarır.

Elə həmin gün admiral Hacı Vahabı yanına çağırıb heyranlığını gizlətmədən, ona mükafat olaraq yüz çervon qızıl təqdim edir. Lakin Hacı Vahab qızılları götürmür, deyir ki, dənizçi diplomunu heç min çevrona dəyişməz. Kapitanın özünəgüvənliyi və təmkini admirala xoş gəlir, onunla daha yarım saat söhbət edəndən sonra ətrafındakılara qətiyyətlə söyləyir: "Onun diplomu olacaq!"

Admiralın dənizçilik təcrübəsinə və səriştəsinə heyran qaldığı Hacı Vahaba iki ildən sonra Peterburqdan göndərilmiş dənizçilik diplomunu təqdim edirlər. Diplomun əsli Milli Azərbaycan Tarix Muzeyində saxlanılır.

Hacı Vahab 1916-cı ildə dünyasını dəyişib.

25 kapitan və onlarca mexanik ərsəyə gətirmiş bu sülalədən olan dənizçilər bu gün də ləyaqətlə öz əcdadlarının yolunu davam etdirirlər.

Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində çalışan və ixtisasca gəmi sürücüsü olan Tofiq Zeynalabdin oğlu Babayev İran İslam Respublikasında Gəmiçiliyin nümayəndəsidir.

## BAKI DƏNİZÇİLİK SİNİFLƏRİNİN İLK AZƏRBAYCANLI MƏZUNU

***XIX əsrin sonunda Bakıda neftin sənaye üsulu ilə hasilatı artıb və bu iqtisadi amil Xəzərdə gəmiçiliyin sürətli inkişafına təkan verib. Qısa vaxt ərzində Bakıda böyük dəniz nəqliyyatı təsərrüfatı yaranıb. Xəzərdə mayedaşıyan gəmilər ildən-ilə artdıqca, dənizçi kadrlara tələbat da çoxalıb.***



Yaranan tələbatı ödəmək məqsədi ilə 1881-ci ildə Bakıda dənizçilik sinifləri təşkil edilib. Burada əsasən iş təcrübəsi olan dənizçilər təhsil alıblar. Siniflər donanma üçün hər il 25-30 şturman (gəmi sürücüsü) və 15-17 şkiper (kapitan) hazırlayıb. Təhsil rus dilində olduğundan, siniflərdə azərbaycanlılar azlıq təşkil ediblər. 1881-ci ildən 1902-ci ilədək bu təhsil ocağını 945 mütəxəssis bitirib. Onlardan 136 nəfər milliyyətcə azərbaycanlı olub.

İçərişəhərli Süleyman İsmayıl oğlu 1883-cü ildə sözügedən sinifləri bitirmiş ilk azərbaycanlı məzun olub. Gəmi sürücüsü ixtisası üzrə diplom almış Süleyman İsmayıl oğlunun özü İsmayılovlar (İzmaylovlar) - Süleymanovlar dənizçilər sülaləsinin təməlini qoyub. Həmin sülalənin nümayəndələri bu gün də Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində ləyaqətlə çalışırlar.

*Sevda Abdullayeva,*
*İctimaiyyətlə əlaqələr üzrə mütəxəssis*

# ƏSAS HƏDƏF TİKİLƏCƏK MƏNZİLLƏRİN GƏNC AİLƏLƏRİN, AZTƏMİNATLI İNSANLARIN GƏLİRLƏRİNƏ UYĞUN OLMASIDIR

***"Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi"nin icrası ölkə əhalisinin mənzilə sahib olmaq imkanlarının artırılmasına, iqtisadi canlanmaya və yeni iş yerlərinin açılmasına səbəb olacaq, o cümlədən ipoteka bazarının inkişafına şərait yaradacaq.***

AZƏRTAC-ın müxbirinin Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin eksperti Namiq Seyidovla müsahibəsi bu yol xəritəsinin hədəfləri, uyğun qiymətə mənzil tikintisinə nail olmaq yolları barədədir.

**-Sizcə, tikinti şirkətləri ucuz mənzillərin inşasına, eləcə də tikinti xərclərinin azaldılmasına hansı real vasitələrlə nail ola bilərlər?**

-Təbii ki, bu sahədə çalışan şirkətlərə ilk növbədə güzəştli vergi şərtləri tətbiq olunmalı, qeyri-qanuni ödənişlərə yol verilməməlidir.

Uyğun qiymətə mənzil tikintisində əsas amillərdən biri də inşaat materiallarının qiymətidir. Belə ki, xaricdən idxal olunan tikinti materialı və avadanlıqlar valyuta ilə alındığından, bu, çəkilən xərclərə ciddi təsir edir, mənzillər baha başa gəlir.



Əgər tikinti şirkəti həm də inşaat materiallarının istehsalçısıdırsa, materiallar ona demək olar ki, maya dəyərinə başa gələcək, bununla da tikintiyə çəkilən xərclər xeyli azalacaq.

Qeyd etmək istəyirəm ki, burada əsas hədəf tikiləcək mənzillərin gənc ailələrin, aztəminatlı insanların gəlirlərinə uyğun olmasıdır. Yəni mənzil alınmasına çəkilən xərcin ailə büdcəsinin 40-50 faizindən çox olmayacağını düşünürəm. Həmin binalarda mənzil alan bu kateqoriyalı şəxslərə həm də dövlət tərəfindən müəyyən güzəştlər ediləcək. Ola bilsin ki, güzəştlər uzunmüddətli, kiçik faizli ipoteka formasında olsun.

**- Beynəlxalq təcrübədə bu məsələlər necə həll olunur?**

- Beynəlxalq təcrübədə mənzil xərclərinin azaldılması və əhalinin standartlara cavab verən mənzillərə ehtiyacının ödənilməsi sahəsində mühəndis-kommunikasiya təminatı sisteminin və xətlərinin çəkilməsi ilə bağlı dövlət dəstəyi mexanizmlərinin tətbiq edilməsi əsas şərtlərdən biridir. Bu sahədə Almaniya təcrübəsi daha çox diqqət çəkir. Orada bina tikintisinə cavabdeh qurum bələdiyyədir. Tikinti şirkəti, yaxud hüquqi və ya fiziki şəxs bələdiyyəyə müraciət edərsə, ilk növbədə ərazinin kommunikasiya vəziyyəti yoxlanılır. Ərazidə kommunikasiya xətlərini qoşmağa şərait varsa, bina tikintisinə icazə verilir. Tikinti başlamazdan əvvəl bələdiyyə tərəfindən inşaat meydançasına işıq, su və qaz xətləri çəkilir. Bina təhvil verildikdən sonra sifarişçi heç bir əziyyət çəkmir. Sakinlər isə kommunal xərcləri sonradan bələdiyyəyə ödəyirlər.

Təəssüf ki, respublikamızda tikinti təşkilatları tərəfindən binaların qazlaşdırılmadan istifadəyə verilməsi hallarına hələ də rast gəlinir.

**- Uyğun qiymətə mənzil tikintisinə yerli və xarici investorların cəlb olunması nəzərdə tutulur. Xarici şirkət və investorların bu sahədə rolunu necə təsəvvür edirsiniz?**

- Fikrimcə, xarici şirkətlərin və investorların Azərbaycanda bu istiqamətdəki fəaliyyəti yardımçı xarakter daşıya bilər. Xarici şirkəti Azərbaycan iqtisadiyyatının hər hansı bir sahəsində layihəyə cəlb etməklə, onun əldə etdiyi qazancın, məsələn, 10-15 faizi mənzil tikintisinə yatırmaq olar. Yəni şirkət bu layihəyə cəlb etdiyi yerli işçiləri uyğun qiymətə mənzillə təmin edə bilər.

Əlbəttə, hər hansı şirkət investisiya yatırırsa, onun bəhrəsini görməlidir. Odur ki, uyğun qiymətə mənzil tikintisində başlıca olaraq, yerli şirkətlərin qüvvəsindən istifadə etməliyik.

Ümumilikdə, Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən bu layihə aztəminatlı insanların həyat şəraitinin yaxşılaşdırılması ilə yanaşı, tikinti sektorunun inkişaf dinamikasının davamlılığını təmin edəcək.

## AVROPAYA ARALIQ DƏNİZİ VASİTƏSİLƏ 11 MİN MİQRANT GƏLİB




***Beynəlxalq Miqrasiya təşkilatının məlumatına əsasən, 2017-ci ildə Avropaya Aralıq dənizi vasitəsilə 11 min miqrant gəlib. Bunların 85 faizi artıq İtaliya, digərləri isə Yunanıstan sərhədlərinə çatıblar. 255 nəfər yolda həyatını itirib.***

Təşkilatın məlumatına görə, ötən il 5 min miqrant yolda həyatını itirib, 363 min miqrant isə Avropa ölkələrinə gəlib.

## "ITECA CASPİAN" AZƏRBAYCANDA 16 SƏRGİ VƏ 1 KONFRANS KEÇİRMƏYİ PLANLAŞDIRIR

***2017-ci ildə "Iteca Caspian" şirkəti Azərbaycanda 16 sərgi və 1 konfrans keçirməyi planlaşdırır.***

"Iteca Caspian" şirkətindən bildirilib ki, hər il "Iteca Caspian" şirkəti tərəfindən Azərbaycanda təşkil olunan beynəlxalq sərgilər mövsümü cari ilin aprel ayında start götürəcək.

Sərgilər dövlət sənaye strukturlarının dəstəyi ilə Bakı Ekspo Mərkəzində keçiriləcək. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hər il bir çox sərgini ziyarət etməsi isə bu tədbirlərin ölkə iqtisadiyyatı üçün əhəmiyyətini və ölkə rəhbərliyinin diqqət mərkəzində olduğunu nümayiş etdirir. Tədbirin beynəlxalq statusu Dünya Sərgi Sənayesi Assosiasiyasına üzvlük ilə tamamlanır və burada sərgilər elan olunan statistik məlumatlar və tələb olunan təşkilati səviyyəyə uyğunluq baxımından hər il kompleks yoxlamadan keçərək keyfiyyət nişanı ilə təltif olunur. Əsas sənaye sərgiləri beynəlxalq təşkilatlar tərəfindən də dəstəklənir.

Hazırda 2017-ci il sərgilərinin potensial iştirakçıları ilə aktiv işlər aparılır. Sərgi mövsümü aprelin 6-da XVI Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər "AITF 2017" və XI Qafqaz Beynəlxalq Mehmanxana, Restoran və Supermarketlər üçün Avadanlıq və Ləvazimatlar "Horex Caucasus 2017" sərgiləri ilə öz işinə başlayacaq. Yarandığı ilk gündən bəri "AITF" sərgisi Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən fəal dəstəklənir. Bu tədbir həmçinin daimi iştirakçı – BMT-nin Dünya Turizm Təşkilatı, Asiya-Sakit okean Turizm Assosiasiyası, Azərbaycan Turizm Assosiasiyası kimi beynəlxalq təşkilatlar tərəfindən də dəstəklənir.

Builki sərgi çoxlu sayda turizm istiqamətlərini, hava yollarını, otel şəbəkələrini və digər turizm xidmətlərini təqdim edəcək. İştirakçılar arasında Azərbaycan, İtaliya, İsveçrə və digər ölkələrdən şirkətlər var. Ənənəvi olaraq, sərgidə milli və regional stendlər də təmsil edilir. Artıq Belarus, Bolqarıstan, Çex Respublikası, Dominikan Respublikası, Gürcüstan, Mərakeş və Tailand sərgidə öz milli stendləri ilə iştirak edəcəklərini təsdiqləyiblər. Sloveniya və Rusiya Federasiyasının Stavropol regionu isə sərgidə regional stendlərlə çıxış edəcəklər. Hər il sərgiyə yeni iştirakçılar qoşulur və bu il ilk dəfə olaraq Kolumbiya və Kuba sərgidə öz turizm imkanlarını təqdim edəcək. Azərbaycan və regionlarının yerli turizm imkanları da tədbirdə geniş şəkildə nümayiş etdiriləcək. Bu il "Horex Caucasus 2017" sərgisində tekstil məmulatları, uniformalar və mükəmməl gigiyena məhsulları ilə yanaşı, mehmanxana və restoranlar üçün mətbəx ləvazimatları da nümayiş etdiriləcək.

Daha sonra estafet üç nəqliyyat sərgisinə ötürüləcək, belə ki, aprelin 26-28-də Bakı Ekspo Mərkəzində XVI Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika "Transcaspian/Translogistica", VII Xəzər Beynəlxalq Yol İnfrastrukturu və İctimai Nəqliyyat "Road & Traffic" və IV Xəzər Beynəlxalq Kater və Yaxtalar "CIBS 2017" sərgiləri keçiriləcək.

Mayın 17-dən 19-a kimi keçiriləcək XXIII Azərbaycan Beynəlxalq Qida Sənayesi "WorldFood Azerbaijan 2017" və Xəzər Beynəlxalq Qablaşdırma, Tara, Etiket və Poliqrafiya "Ipack CASPIAN" sərgilərinin iştirakçıları tərəfindən həm yerli, həm də xarici istehsalçı şirkətlərin çoxlu sayda məhsulları nümayiş etdiriləcək.

Ənənəvi olaraq, bu il sərgilərin yaz mövsümü regionun ən böyük sənaye sərgisi XXIV Beynəlxalq Xəzər Neft və Qaz "Caspian Oil & Gas" (31 may - 3 iyun), "JW Marriott Absheron Baku" otelində keçiriləcək XXIV Beynəlxalq Xəzər Neft və Qaz Konfransı "Caspian Oil & Gas Conference" (1-2 iyun) və VII Xəzər Beynəlxalq Energetika və Alternativ Enerji "Caspian Power 2017" sərgiləri ilə yekunlaşacaq.

Cari ilin sentyabr ayında payız mövsümü öz işinə başlayacaq və bura "BIHE", "Stomatology Azerbaijan", "Beauty Azerbaijan", "WorldBuild Baku", "Aquatherm Baku" "Securika Caspian" sərgiləri daxil olacaq. İki sərgi – Beynəlxalq İstilik, Havalandırma və Kondisiyalaşdırma sistemləri, Su təchizatı, Sanitariya, Ətraf Mühitin Mühafizəsi Texnologiyaları, Üzgüçülük Hovuzu və Bərpa Olunan Enerji "Aquatherm Baku" və Xəzər Beynəlxalq Mühafizə, Təhlükəsizlik və Xilasetmə Vasitələri "Securika Caspian" sərgiləri 2017-ci ildə öz onilliklərini qeyd edəcək.

Sərgilər müxtəlif bazar sektorlarını təmsil edən iştirakçıların nümayəndələri ilə canlı söhbət etmək, ən son təmayülləri müzakirə etmək və qabaqcıl sənaye ekspertlərindən məsləhətlər almaq üçün yenidən imkanlar təklif edəcək. Qonaqlar aktual innovasiyaların müzakirəsində və gələcək problemlərin və nailiyyətlərin qiymətləndirilməsində iştirak etməklə yanaşı, potensial alıcılar və tərəfdaşlarla biznes əlaqələri yaratmaq imkanı da qazanacaqlar.

Şirkətlərin marketinq planlarının formalaşmasında, sərgilərin mühüm rol və mövqe tutmasını bir faktla da təsdiqləmək olar ki, dünya iqtisadiyyatının silkələnməsinə baxmayaraq, bazarın əsas iştirakçıları hələ də sərgilərə sponsorluq edirlər. Bu il sərgilərə sponsorluq edən şirkətlərin arasında artıq bu müəssisələr var: Azeri M-I Drilling, AZFEN J.V., Baku Steel Company, BP, Caspian Drilling Company, Caspian Geophysical, Caspian Marine Services, Denton, Ernst&Young, Fluor, Global Energy, HBC Group, NB Qrup ASC, Nobel Upstream, RusNeft, Socar Polymer, Statoil, Tekfen Construction, Total Absheron. 2017-ci ildə "Iteca Caspian" şirkətinin tərəfdaşları arasında rəsmi tur operator "Premier Tour" şirkəti, "Qafqaz Point Otel" (rəsmi mehmanxana) və rəsmi stend montajçısı "AzExpoMontage" şirkəti yer alır.

"Iteca Caspian" şirkətinin baş direktoru Fərid Məmmədov deyir ki, "Sərgi sadəcə kommersiya fəaliyyəti deyil. İnsanlar şəxsən tanıdıqları insanlarla biznes əlaqəsi yaratmağa üstünlük verirlər. Qısa desək, sərgi yeni üfüqlər açmaq, partnyor tapmaq və yeni bazara daxil olmaq üçün imkan yaratmaqla, insanları bir-biri ilə əlaqələndirir. Bizim əsas işimiz sərgi çərçivəsində iştirakçılar üçün əlavə imkanlar, eləcə də ixtisaslaşdırılmış auditoriyaya daha dəqiq yanaşmanı təmin etməkdir".

Sərgilər haqqında daha ətraflı məlumatı şirkətin www.iteca.az rəsmi internet saytından əldə etmək mümkündür.



## SU HÖVZƏLƏRİNİN REKONSTRUKSİYASI XÜSUSİ METODLARIN TƏTBİQİNİ TƏLƏB EDİR

***Azərbaycan Milli Elmlər Akademiyasının Geologiya və Geofizika İnstitutunda tədqiqatların yeni istiqamətinin yaradılması nəzərdə tutulur.***

Müxtəlif geoloji formasiyalar arasında genetik əlaqələrin müəyyənləşdirilməsi, yeraltı suların hərəkətlərinin təyini, su hövzələrinin, çöküntülərin və biogen kütlələrin mövcudluğunun paleotemperatur şəraitlərinin rekonstruksiyası, həmçinin geoloji əmələgəlmələrin mütləq yaşının təyini xüsusi izotop-geokimyəvi metodların tətbiqini tələb edir.

İnstitutdan bildirilib ki, su ehtiyatlarından səmərəli istifadə vahid "Azərbaycan Respublikasının su resurslarının istifadəsi və qorunmasının Baş Sxemi" işlənib hazırlandıqda mümkündür. Bu işlərin yerinə yetirilməsinin vacibliyi institutun elmi şurasının iclasında müzakirə olunub və müvafiq qərarla təsdiqlənib.



## "SUDA BATIRILAN MİLYARDLAR"

***Sənaye miqyasında balıq ovuna çəkilən xərclərin daim artması müqabilində alınan mənfəət get-gedə azalır. Lakin əgər Dünya okeanına bir qədər "dinclik" verilsə və sənaye miqyasında balıq ovunun həcmi azaldılsa, balıqçılıq sahəsi ildə 83 milyard dollara qədər əlavə mənfəət əldə edə bilər.***

BMT radiosunun verdiyi xəbərə görə, Dünya Bankının analitikləri bu qənaətə gəliblər. Onlar "Suda batırılan milyardlar" adlı yeni məruzədə iddia edirlər ki, əgər sənaye miqyasında balıq ovu azaldılsa, Dünya okeanında balıq ehtiyatları bərpa olunar və son nəticədə ovlanan balığın həm çəkisi, həm də dəyəri artar. Dünya Bankının analitiklərinin fikrincə, balıqçılıq sektorunun illik mənfəəti hazırda 3 milyard dollar həddində olduğu halda həmin tədbirlər nəticəsində bu rəqəm 86 milyarda qədər artırıla bilər.

Araşdırma müəllifləri qeyd edirlər ki, bu halda istehlakçılara təklif edilən dəniz məhsulları artacaq, bu isə dünyanın bir sıra ölkələrində ərzaq sabitliyi yaratmağa imkan verəcək.

## SAHİLƏ ÇIXAN DELFİNLƏRİN HAMISINI XİLAS ETMƏK MÜMKÜN OLMAYIB

***"Radio New Zealand"ın yaydığı məlumata görə, 600-dən çox qrind-delfini Yeni Zelandiyanın Cənub adası sahillərinə çıxıb.***





Hadisə yerinə gələn könüllülər 100-dək delfini dənizə qaytara biliblər, qalanları həlak olub. Məlumatda qeyd edilir ki, bu, Yeni Zelandiyada delfinlərin kütləvi şəkildə məhvi ilə bağlı ən böyük hadisələrdən biridir.

Delfinlər hələ də buxtada üzməkdə davam edir. Xilasedicilər qayıqlarda onların ətrafında dolanaraq açıq dənizə yolu göstərməyə çalışırlar.

Yeni Zelandiya delfin və balinaların sahilə tez-tez çıxdığı yer kimi tanınıb. Alimlər hələ də bu hadisənin dəqiq səbəblərini tapa bilmirlər. Adətən delfinlərdən biri özünü sahilə atırsa, digər delfinlər də kömək məqsədilə onun ardınca hərəkət edir.

Yerli Təbii Ehtiyatların Mühafizəsi Departamentinin əməkdaşı Mayk Ouql radiostansiyaya bildirib ki, hadisəyə səbəb köpək balığının hücumu ola bilər.

M.Ouqlun bildirdiyinə görə, delfinlərdən birinin bədənində kiçik, lakin təzə diş yerləri aşkar edilib. Ola bilsin ki, delfinlərin hərəkəti bununla bağlı olsun.

## SU HÖVZƏLƏRİNƏ 406 MİLYONDAN ÇOX BALIQ KÖRPƏSİ BURAXILIB



***Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Su Hövzələrində Bioloji Resursların Artırılması və Mühafizəsi Departamentinin tabeçiliyində fəaliyyət göstərən balıqartırma müəssisələrində 2016-cı il ərzində 406,58 milyon müxtəlif növ vətəgə əhəmiyyətli balıq körpəsi süni yolla artırılaraq respublikanın müəyyən edilmiş su hövzələrinə buraxılıb.***

Departamentdən verilən məlumata görə, bütün balıq növləri üzrə müəyyən edilmiş proqnozlara 91 faiz əməl olunub. Su hövzələrinə buraxılan balıq körpələrinin 7,57 milyonunu nərə cinslilər, 398,81 milyonunu çəkikimilər, 199,8 minini isə qızıl balıqlar təşkil edib.



## GÖL QURUYUR

***Boliviyanın cənub-qərbində yerləşən və ölkənin ikinci böyük gölü olan Poopo havanın hərarətinin artması və yağışların azalması səbəbindən qurumaq üzrədir.***

Anadolu agentliyi xəbər verir ki, Poopo gölünün olduğu bölgədə temperatur son 56 ildə 2 dərəcə artıb.

Yaranmış vəziyyətlə əlaqədar Boliviya Prezidenti Evo Morales Poopo gölünün şərqində və qərbində artıq su qalmadığını bildirib.

Hələ 2010-ci ildə Boliviya dövləti və Avropa İttifaqı arasında Poopo bölgəsinin xilas edilməsi üçün təxminən 15 milyon dollarlıq müqavilə imzalanıb. Gölün və onun ətrafında yerləşən bölgənin yenidən bərpası üçün ciddi tədbirlər həyata keçirilib.

## QƏDİM TİMSAH SÜMÜKLƏRİ TAPILIB



***Çinin Şensi əyalətindəki Sian şəhərində aparılan arxeoloji qazıntılar zamanı yaşı 2,7 min ildən çox olan qədim timsah sümükləri tapılıb.***

"runews24.ru" saytının verdiyi xəbərə görə, mütəxəssislər tapıntının bizim eradan əvvəl XI əsrdən bizim eranın 771-ci ilinədək olan dövrə aid edildiyini, bu ərazidə ilk dəfə aşkarlandığını bildiriblər. Alimlər əvvəllər burada gölün mövcud olduğunu və timsahların yaşadıqlarını güman edirlər.




## İNFEKSİYALARDAN QORUYA BİLƏR

***Ekspertlər yeyinti məhsullarını D vitamini ilə zənginləşdirməyə çağırırlar. İmmunitet bu vitamindən bakteriya və viruslarda deşiklər açan immun "silahının" istehsalı üçün istifadə edir.***

"meddaily.ru" saytı xəbər verir ki, Kraliça Mariya Universitetinin alimləri 11321 adamın iştirakı ilə 25 müstəqil sınağın məlumatlarını təhlil ediblər. Ekspertləri müxtəlif respirator infeksiyalar maraqlandırıb. Onların hesablamalarına görə, D vitamininin qəbul edilməsi hər 33 adamdan birini infeksiyalardan qoruya bilər.

Bu vitamin hər gün, yaxud hər həftə bioloji aktiv əlavələr (BAƏ, böyük dozadan imtina etmək lazımdır) qəbul edən və əvvəlcədən orqanizmində D vitamini çatışmazlığı olan adamlar üçün xüsusilə vacibdir. Vitaminin əsas funksiyası bədəndə sümük, diş və əzələlərin möhkəmlənməsi və saxlanılması üçün lazım olan kalsiumun və fosfatın miqdarını tənzimləməkdir. Tədqiqatlar vitaminin immunitet üçün praktiki əhəmiyyətini də göstərir. Ancaq bu vitaminin çoxluğu qanda kalsiumun səviyyəsini yüksəldir. Nəticədə böyrəklər və ürəkdə problemlər yaranır.

## GƏMİÇİLİK NÖVBƏTİ TƏQAÜD PROQRAMINI ELAN EDİR

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Azərbaycan Dövlət Dəniz Akademiyasının daha iki tələbəsinin xarici ölkədə təhsil almasını maliyyələşdirəcək. Bu məqsədlə 2017-ci il üzrə Təqaüd Proqramı elan olunub. Müraciət üçün IV kurs tələbəsi və ya məzun olmaq şərtdir. Aşağıdakı sənədlər tələb olunur:

- Dil sertifikatı;
- Şəxsiyyət vəsiqəsi;
- Diplom və qiymət cədvəli (transcript);
- Diplomunu hələ almayanlar üçün qiymət cədvəli ilə birlikdə ADDA-nın məzunu olması barədə arayış;
- İki tövsiyə məktubu;
- Hərbi bilet və ya hərbi möhlət hüququ haqqında sənəd;
- Sağlamlıq haqqında arayış.

Bununla yanaşı, ərizəçilər seçilmiş ali təhsil müəssisəsində tələb edilən xarici dili bilməli, oxuduğu müddətdə orta təhsil balı 80-dən yuxarı olmalı, təhsilini bitirdikdən sonra beş il "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də işləməlidirlər.

Arzu edənlər 2017-ci il martın 17-dək müraciət edə bilərlər.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəhbərliyi gənclər siyasətinə, o cümlədən yüksəkixtisaslı gənc mütəxəssislərin hazırlanmasına, işə qəbul olunanların bilik və bacarıqlarına, Dəniz Akademiyasının maddi-texniki və kadr bazasının möhkəmləndirilməsinə xüsusi diqqət yetirir. Gənclərin dənizçilik sahəsində qabaqcıl beynəlxalq təcrübəyə daha dərindən yiyələnməsi istiqamətində ardıcıl addımlar atılır. İstedadlı və perspektivli gənclərin xarici dövlətlərin aparıcı dənizçilik universitetlərində təhsil alması məqsədilə Təqaüd Proqramının təsis edilməsi də bu addımlardan biridir. Xatırladaq ki, sözügedən Təqaüd Proqramı iki ildir həyata keçirilir. Artıq Azərbaycan Dövlət Dəniz Akademiyasının dörd tələbəsi Gəmiçiliyin vəsaiti hesabına xarici ölkədə oxuyur.



## OKSİGENİN SƏVİYYƏSİNİN AZALMASI SU HÖVZƏLƏRİNDƏ YAŞAYAN CANLILAR ÜÇÜN TƏHLÜKƏLİDİR

***Almaniyalı mütəxəssislər okeanlarda oksigenin həcminin azaldığını və bu təbii fəlakətin sürətlə baş verdiyini bildiriblər.***

"runews24.ru" saytı xəbər verir ki, elmi tədqiqatlar nəticəsində son 50 il ərzində okeanlarda oksigenin həcminin iki faiz azaldığı sübut olunub. Alimlər, həmçinin okeanların üst təbəqəsində oksigenin daha çox itirildiyini dəqiqləşdiriblər. Buna səbəb kimi antropogen amillərin hidrosferə mənfi təsiri göstərilir.

Alimlərin fikrincə, oksigenin səviyyəsinin azalması su hövzələrində yaşayan canlılar üçün təhlükəli ola bilər.

## OKEANIN DƏRİNLİKLƏRİNDƏ QADAĞAN EDİLMİŞ MADDƏLƏR TAPILIB

***Sakit okeanın dərinliklərində 1970-ci illərdə qadağan edilən kimyəvi maddələr tapılıb.***



bbc.com saytı xəbər verir ki, alimlər polixlorlaşmış difenil (PXD) və polibromlu difenil efirləri (PBDE) kimi çirkləndiricilərin dərin dəniz ekosistemlərində yüksək konsentrasiyasının olmasına təəccüblənibilər. Nəticələr "Təbiət Ekologiyası və Təkamül" jurnalında dərc olunub. Nyukasl Universitetinin tədqiqatçıları Sakit okean səthinin dərinliklərində xərçəngkimilər növündən olan yanüzənlərin piy toxumasındakı çirkləndiricilərin səviyyələrini nümunə olaraq götürüblər. Heyvanlar 10 km-dən daha dərində və bir-birilərindən 7 min km uzaqlıqda yerləşən Mariana və Kermadek çökəklərindən əldə edilib.

PXD və PBDE XX əsrdə geniş istifadə olunsa da sonradan zərərli olduqları və təbiətdə toplanması təsbit edilib. PXB istehsalına 1979-cu ildə ABŞ-da və 2001-ci ildə BMT tərəfindən "Davamlı Üzvi Çirkləndiricilər"ə dair Stokholmda imzalanmış Sazişə əsasən qadağa qoyulub. 1930-1970-ci illər ərzində bu maddənin istehsalının1.3 milyon ton olduğu təxmin edilir.

## MEDALLARIN HAZIRLANMASI ÜÇÜN 20 MİLYON ƏDƏD MOBİL TELEFON LAZIMDIR

***Tokio hökuməti 2020-ci ildə bu şəhərdə keçiriləcək Olimpiya və Paralimpiya oyunları üçün medalların atılan telefonların və digər elektron qurğuların metal hissələrindən düzəldilməsi ilə bağlı layihəyə qoşulub.***




Bu məqsədlə rəsmi nümayəndələr istifadə edilməyən telefonları atmaq üçün paytaxt hökumətinin binasında xüsusi səbət qoyublar. Burada telefonların yaddaşında qalan şəxsi informasiyaları silmək üçün xüsusi qurğu da yerləşdirilib.

Tokio qubernatoru Yuriko Koike deyib ki, o, evdə istifadə etmədiyi üç telefonu gətirərək artıq həmin səbətə atıb. Y.Koike ümid etdiyini bildirib ki, bu cür tədbirlər "Tokio-2020" Olimpiya Oyunlarına ictimaiyyətin marağının daha da artmasına səbəb olacaq.

Layihə "Tokio-2020" Olimpiya Oyunlarının Təşkilat Komitəsinin dəstəyi ilə reallaşdırılır. Təşkilat Komitəsindən bildiriblər ki, Oyunlar zamanı 5 min medalın verilməsi nəzərdə tutulur və onların hazırlanması üçün 10 kiloqram qızıl, 1230 kiloqram gümüş və 736 kiloqram mis tələb olunur. Göstərilən miqdarda medalların hazırlanması üçün 20 milyon ədəd mobil telefon tələb olunur.

Apreldən başlayaraq Təşkilat Komitəsi elektron qurğuların toplanması üçün belə səbətləri bütün ölkə ərazisində yerləşdirməyi planlaşdırır.

*Vüqar Ağayev*

## ÇİRKLİ HAVA HƏR İL MİLYONLARLA İNSANIN ÖLÜMÜNƏ SƏBƏB OLUR

***Çirkli hava dünyada geniş yayılan ölüm səbəblərindən beşincisidir. ABŞ-ın "Health Effects" İnstitutunun mütəxəssisləri çirklənmiş havadan neçə insanın zərər çəkdiyini hesablayıblar. Məlum olub ki, 2015-ci ildə çirkli hava 4,2 milyon insanın ölümünə səbəb olub. Bu rəqəmin böyük hissəsi (2,2 milyon) Hindistan və Çinin payına düşür.***



"Meddaily" saytı xəbər verir ki, çirkli hava Yer planeti sakinlərinin 92 faizinə pis təsir edir. Çirkli hava xərçəng, ürək-damar, xroniki respirator xəstəliklərinin yaranma riskini yüksəldir. Hindistan və Çinə gəldikdə isə burada çirkli havadan yaranan xəstəliklərin ölümlə nəticələnməsi daha çox müşahidə edilir. Bu ölkələrin hər birində ildə bir milyondan çox adam ölür.

Dünya Səhiyyə Təşkilatı müəyyən edib ki, havanın və torpağın çirklənməsi, kimyəvi maddələrin təsiri, iqlim dəyişikliyi və ultrabənövşəyi şüalanma səbəblərindən 100-dən çox xəstəlik və travma yaranır.

Səmərəsiz nəqliyyat növləri, yanacaq və zibilin yandırılması, kömürlə işləyən elektrik stansiyaları və sənaye müəssisələrinin fəaliyyəti ətraf mühiti daha çox çirkləndirir. Səhra ərazilərlə qonşu regionlarda toz qasırğaları da bu işə öz "töhfəsini" verir.

## DEYİMLƏR

**Allahdan həmişə səbr istədim, o da həmişə səbr verdi. Mükafat istəyim ki?**

**Yuxarıda olanda yaza bilməyəcəyim üçün məni tanıyanlardan heç kəs əlimin yuxarı olmasını istəməyib?**

**Çox şeyi bilməmək problem deyil. Lazım olanı bilməmək, bax, bu, böyük problemdir.**

**Həmişə həqiqətə güvəndim və həqiqət də məni yaxşı ki, bəzən yarıyolda qoydu. Zərərin yarısından qayıtdığım yolda.**

**Öz həkimi olanın özünə istənilən həkimdən daha çox faydası olur.**

**Hamı özünü ağıl dəryası sayır. Belə getsə, yer üzünü tamam su basacaq.**

**Arxada qoyduqlarınızın sayı artdıqca, arxanızca danışanlar da çoxalacaq.**

**Necə yaşayasan? Bəzən bu sualın cavabını tapmağa ömür də kifayət etmir.**

**Həyatın ən böyük axmaqlığı axmaq adamlarla oturub-durduğunu yalnız artıq fiziki cəhətdən oturub-dura bilməyəndə dərk etməkdir.**

**Üzə bilməməyin yaxşıdır. Axına qarşı getməzsən.**

**Ağıl yeganə şeydir ki, onu itirən bu itkini heç vaxt dilə gətirmir.**

**Yolçularının çoxluğundan belə bəlli olur ki, ən rahat yol cəhənnəmə aparan yoldur.**

**Ancaq və ancaq dayı axtaranlar, əmilər də yad deyil.**

**Qaçmağın cana faydası olsa da, sözün üstündən qaçmaqdan pis şey yoxdur.**

**Yaxşılığa həmişə "yaşıl işıq" yanır.**

**Qonşuma iki istəyəndən, qonşum da yalnız özünə dörd istəyir.**

**Stul çatışmadığı üçün başqalarının boynunda oturanlar belə çoxdur?**

**Heç vaxt "hoş" demədim. Amma bu, o demək deyil ki, bəxtim həmişə gətirib və indiyədək uzunqulaqla rastlaşmamışam.**

**Tamah dişi yaşa baxmır. Lap yüzdə də çıxa bilər.**

**Bəzilərini görəndə yadıma qara qəpiklər düşür. Qara qəpiyə də dəymədikləri üçün?**

**Həkimlər ən çox xəstənin... imkanına baxırlar.**

**Doğrunun mükafatını Allah verdiyi üçün mükafat veriləndə birinci onlar ixtisara düşür?**

**Yaxşı ki, indi çox adam it gəzdirir. Bir vaxtlar daha çox söz gəzdirirdilər.**

**Niyə Allahın mərhəmətinə bel bağlayandan ən çox belim ağlayır?**

**Ən zəhləm gedən ifadədir: "Sevdiyiniz işlə məşğul olun". Onsuz da hərə öz sevdiyi işlə - ev yıxan ev yıxmaqla, satqın satmaqla, yaltaq yaltaqlıqla ... məşğuldur.**

**Pul xatirinə işləmədiyimi biləndən, pul da məndən küsüb, yaxın durmur.**

**Bəzilərinin bazar haqqında təsəvvürü niyə kolxoz bazarından o yana keçmir?**

**Şeytan həmişə doğru yoldan yan keçmək istəyənlərin qulluğundadır.**

**Bu günün işini dünən görməyənlər xeyli gecikiblər.**

**Hər kəs özünü ən yaxşı adam sayır. Mənə ancaq və ancaq ən pis adamın yeri qalır.**

**Odla suyun arasında qalmamaq üçün ya oddan uzaq durmaq lazımdır, ya sudan.**

**Dünyaya başqa gözlə baxmaq başqa şeydir, başqasının gözüylə baxmaq tamam başqa şey.**

**Səbr kasası daşanlar xəsislikdən təzəsini almırlar?**

**"5"-dən mənim də xoşum gəlir. Amma buna baxmayaraq, iki üstəgəl iki beş eləmir.**

**Hərə öz nöqteyi-nəzərindən yanaşanda heç bir məsələdə ortaq məxrəcə gəlmək mümkün deyil.**

**Oxumayanların nəzərinə:"Tarix-Nadir" təzədən çap olunur.**

**Bəzisinə elə gəlir ki, vəzifəyə irəli çəkilən andan ağlı da sürətlə artır. Amma, belə düşünənin nəyi artsa da, artmayan təkcə ağlı olur.**

**Göylər ona görə belə ucadır ki, insanlar bu ucalığa qədər yüksələ bilsinlər.**

**Həyatın mənası nədədir? Buna dəqiq əminəm ki, ev yıxmaqda deyil.**

**Sevgi ilə mərhəmət bir quşun iki qanadıdır. Mərhəmətsiz sevgi, sevgisiz mərhəmət olmur.**

**Mən, məndən yaxşı adamın qazana biləcəyi istənilən oyunda uduzmağa hazıram.**

**Düşüncələri çirkli adamlardan uzaq olun. Yoxsa gec-tez elə çirkaba bulaşacaqsınız ki...**

**Pulun köləsi olanlar heç vaxt özlərini əsl ağa kimi hiss edə bilməzlər.**

**Ən yaxşı ağa sözünün ağası olandır.**

**Təkcə qoyun əti yemədiyimə görə, sürünü mənə tapşırmaq düz deyil. Qoyunlar, sürünü qurddan qoruya bilənə tapşırılmalıdır. Yoxsa mənim yemədiyim qoyunları onsuz da qurd yeyəcək.**

**"Çox sağ olun!" Bu, çox çətin ifadə olduğu üçün çox adamın dili tutmur?**

**Nədənsə, yıxılanlar arasında təkcə külək əsən səmtə yıxılanlar zədə almırlar.**

**Kölgən olmasa da, başqasının kölgəsi olma.**

**İnsanları müzakirə etməkdən başqa, bütün müzakirələrin faydası var.**

**Günəş Allahın bəxşişidir. Hər birimiz isə azı bir şam yandırsaq, dünya həmişə işıqlı olar. Şam almağa xəsislik edənlər lap çöp də yandıra bilərlər.**

**Sevinc gətirən şeylər pul gətirən şeylərdən daha üstündür.**

**Xırdaçı olmadıqları üçün bəziləri qara qəpiyə də dəymədiklərindən əsla narahat deyillər?**

**Bəzilərinə elə gəlir ki, yaxşılar ehtiyacları olmadığı üçün heç vaxt pul davası etmirlər. Əzizlərim, davaya ən azı vaxt lazımdır. Onlar da bu davaya qoşulsa, onda gecə-gündüz pul davası edənlərin işini kim görəcək?**

**Hər kəsi özü imkan verdiyi qədər aşağılaya bilirlər.**

***Rasif TAHİROV***



# TURNİRDƏ 21 ÖLKƏDƏN 90 KİŞİ, 46 QADIN İDMANÇININ İŞTİRAKI GÖZLƏNİLİR

***Martın 16-dan 19-dək Bakıda kişi və qadın idman gimnastikası üzrə Beynəlxalq Gimnastika Federasiyasının (FIG) Dünya Kuboku yarışı keçiriləcək. Bakının artıq ikinci ildir ev sahibliyi edəcəyi turnirdə 21 ölkədən 90 kişi, 46 qadın idmançının iştirakı gözlənilir.***

Turnirin ilk iki günündə təsnifat mərhələləri, sonuncu iki günündə isə ayrı-ayrı alətlər üzrə finallar keçiriləcək. Cari Olimpiya dövrünün 2017-ci ildən qüvvəyə minən yeni qaydalarına əsasən, kişi gimnastlar 6, qadın gimnastlar isə 4 dəst medal uğrunda mübarizə aparacaqlar.

2015-ci ildən etibarən Bakıda gimnastikanın bütün Olimpiya növləri üzrə Dünya Kuboku mərhələlərinin keçirilməsi artıq ənənəyə çevrilib. İrimiqyaslı beynəlxalq tədbirlərin zəngin təcrübəyə əsaslanaraq, yüksək səviyyədə təşkili ölkəmizdə gimnastikanın bütün növlərinin inkişafına böyük təkan verir, gimnastika həvəskarlarının sayını ildən-ilə artırır. Bu yolun davamı olaraq növbəti dəfə təşkil ediləcək Dünya Kuboku yarışında Milli Gimnastika Arenasına toplaşacaq tamaşaçılar tanınmış idman gimnastlarının təqdimatında güc, zəriflik və əzmkarlığı əks etdirən gərgin mübarizənin şahidi olacaqlar. Yarış boyunca keçiriləcək əyləncəli fleşmoblar, maraqlı müsabiqələr gimnastika sevənlərə unudulmaz anlar yaşadacaq.

# RUSİYA, GÜRCÜSTAN VƏ ABŞ İDMANÇILARI İLƏ BİR YARIMQRUPDA MÜBARİZƏ APARIBLAR

***İran İslam Respublikasının Kirmanşah şəhərində böyüklər arasında sərbəst güləş üzrə dünya kuboku yarışları keçirilib.***




Püşkatmanın nəticəsinə əsasən, yığma komandamız Rusiya, Gürcüstan və ABŞ idmançıları ilə "A" yarımqrupunda mübarizə aparıb.

İlk görüşdə Rusiya idmançıları ilə qarşılaşan güləşçilərimiz görüşü 4:4 hesablı bərabərliklə bitiriblər. Ancaq xalların keyfiyyətinə görə, 32:29 hesabı ilə öndə olan yığmamız görüşü qalib başa vurub. Yarımqrupun ikinci görüşündə yığmamız Gürcüstan güləşçilərini 5:3 hesabı ilə məğlub edib.

Yarımqrupun son görüşünü komandamız ABŞ idmançılarına qarşı keçirib. Ümumi hesab 4:4 olsa da, texniki xallara görə, 20:14 hesabı ilə üstün ABŞ idmançıları finala yüksəliblər.

Yığmamız digər yarımqrupun ikincisi olan Türkiyə komandası ilə üçüncü yer uğrunda görüşə çıxıb. Rəqibə 7:1 hesabla qalib gələn güləşçilərimiz dünya kubokunu üçüncü sırada tamamlayıb və bürünc medala sahib olublar.

# BİR OLİMPİYA DÖVRÜ ƏRZİNDƏ İKİ HAKİMLİK DƏRƏCƏSİ QAZANMIŞ YEGANƏ HAKİM

***Litvanın paytaxtı Vilnüsdə 2017-2020-ci il yeni Olimpiya qaydaları əsasında təşkil olunan qadın idman gimnastikası üzrə beynəlxalq kurslarda hakimlərimiz Rza Əliyev üçüncü, Anjella Abdullayeva və Kristina Pravdina isə dördüncü hakimlik kateqoriyasını əldə ediblər.***



Kişi idman gimnastikası üzrə hakim Rza Əliyev ötən il Slovakiyanın Bratislava şəhərində keçirilmiş qitələrarası hakimlik kurslarında iştirak edərək, ən yüksək - birinci dərəcəli beynəlxalq hakimlik kateqoriyasını qazanmışdı.

Qeyd edək ki, Rza Əliyev bir Olimpiya dövrü ərzində iki hakimlik dərəcəsi qazanmış yeganə hakimdir.



# AZƏRBAYCAN MİLLİSİ AVROPA KUBOKUNDA KOMANDA HESABINDA BİRİNCİ OLUB

***İspaniyada yeniyetmələr arasında Avropa kubokuna yekun vurulub.***



Yarışın ilk günü Azərbaycan milli komandasının üzvləri 3 qızıl, 1 gümüş və 1 bürünc medal qazanıblar. Ayxan Tanrıverdiyev (55 kq), Vüsal İbrahimov (60 kq) və Vüsalə Kərimova (40 kq) bütün rəqiblərindən üstün olaraq turnirin qızıl medallarına sahib olublar. Knyaz Mahmudlu (66 kq) gümüş, Nazir Talıbov isə Avropa kubokunun bürünc medalına yiyəleniblər.

Yarışın sonuncu günü də Azərbaycan milli komandası üçün uğurlu olub. Cüdoçularımız 1 qızıl və 1 gümüş medal qazanıblar.

Ölkəmizi təmsil edən Məhəmməd Abdullayev (90 kq-dan yuxarı) bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıb. Digər idmançımız Adil Kərimli (90 kq) yalnız final görüşündə qələbəni əldən verib və gümüş medala layiq görülüb.

Bununla da, 4 qızıl, 2 gümüş və 1 bürünc medal qazanan Azərbaycan millisi komanda hesabında Avropa kubokunda birinci olub.

Qeyd edək ki, 21 ölkədən 423 idmançının (234 oğlan, 189 qız) mübarizə apardığı mötəbər turnirdə Azərbaycan milli komandası 16 cüdoçu (12 oğlan, 4 qız) ilə təmsil olunub.

# YIĞMA KOMANDAMIZIN LİDERLƏRİ İŞTİRAK ETMƏSƏLƏR DƏ...



***Dünya Taekvando Federasiyasının və Türkiyə Taekvando Federasiyasının təşkilatçılığı ilə Antalyada keçirilən IV "Turkish Open" beynəlxalq turniri başa çatıb. "G-2" kateqoriyalı turnirdə Azərbaycan yığmasının daha bir üzvü uğurla çıxış edərək komandamızın aktivindəki medalların sayını ona çatdırıb.***

87 kiloqram çəki dərəcəsində dayanq üzərinə çıxan Ramin Əzizov yarımfinalda Rusiya təmsilçisi Vladislav Larinlə qarşılaşmada məğlubiyyətlə üzləşərək bürünc medalla kifayətlənməli olub.

Beləliklə, taekvandoçularımız yarışda 2-si qızıl, 3-ü gümüş və 5-i bürünc olmaqla, ümumilikdə, 10 medal qazanıblar. Yığma komandamızın liderləri Radik İsayev və Milad Beigi Hərçəqani "Turkish Open" turnirində iştirak etməyiblər.




# TENNİS ƏSASƏN QƏRB ÖLKƏLƏRİNDƏ MƏŞHUR OLSA DA...



***Tennis nüfuzlu və vəsait tələb edən idman növlərindən biridir. Amma İslam Həmrəyliyi Oyunları müsəlman ölkələrinin də tennis üzrə güclü rəqabət aparmağa qadir olduğunu nümayiş etdirəcək.***

Bu sözləri "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları Əməliyyat Komitəsinin tennis idman növü üzrə menecer köməkçisi Sabira Abdullayeva deyib.

Martda Azərbaycan millisinin Bakı Tennis Akademiyasında təlim-məşq toplanışına başlayacağını bildirən S.Abdullayeva deyib: "Hazırda idmançılarımız turnirlərdə iştirak edirlər. Bu da atletlərimizin Oyunlara hazırlığını təmin edəcək. IV İslam Həmrəyliyi Oyunlarında Azərbaycanı 6 kişi və 4 qadın tennisçi təmsil edəcək. Adətən hər komandada 4 tennisçi olur. Amma Azərbaycan "Bakı -2017"yə ev sahibliyi etdiyinə görə, kişilərdən ibarət komandaya 2 idmançı əlavə etməyə imkan verilib. İdmançılarımız güclüdür və biz qələbəyə ümid edirik".

Qeyd edək ki, IV İslam Həmrəyliyi Oyunlarının tennis yarışlarında idmançılar 14 medal dəsti uğrunda mübarizə aparacaqlar.

# SUPER LİQA TƏMSİLÇİSİ AVROKUBOKLARDAN KƏNARLAŞDIRILIB




***Türkiyənin "Karabükspor" futbol klubu UEFA tərəfindən sərt cəzalandırılıb.***

Super Liqa təmsilçisi avrokuboklardan kənarlaşdırılıb. Buna səbəb klubun maliyyə "fair-play"inin tələblərini pozmasıdır. Uzun müddət "Karabükspor"la bağlı araşdırma aparan UEFA klubu 2 il beynəlxalq yarışlardan kənarlaşdırılıb.

"Karabükspor" 2016-2017-ci və 2017-2018-ci il mövsümlərində avrokuboklara vəsiqə qazansa, turnirdə iştirak edə bilməyəcək.




BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1003, Bakı şəhəri,
Xanlar küçəsi, 22
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76
Redaktor
(070) 252-39-02

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 571